ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...
Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 36 (1518) ❖ Cümə, 27 noyabr 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur

Azərbaycan-Vyetnam əlaqələri yeni inkişaf mərhələsinə qədəm qoyur

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Vyetnam Sosialist Respublikasına rəsmi səfər edib.



Fəxri qarovul dəstəsinin düzüldüyü Hanoyun Noi Bai Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Vyetnam Sosialist Respublikasının ədliyyə naziri Hoanq Than Tunq və digər rəsmi şəxslər qarşılayıblar.

Növbəti gün Prezident İlham Əliyev Vyetnamın paytaxtı Hanoy şəhərində "İnqilab şəhidləri" abidəsini ziyarət edib, abidənin önünə əklil qoyub.

Dövlətimizin başçısı Hanoyda Vyetnam Sosialist Respublikasının qurucusu Ho Şi Minin məqbərəsini də ziyarət edib. Prezident İlham Əliyev Ho Şi Minin xatirəsinə ehtiramını bildirib, məqbərənin önünə əklil qoyub.

Prezident İlham Əliyevin Vyetnam Sosialist Respublikasının Baş naziri Le Minh Hunq ilə görüşü olub.

Görüşdə çıxış edən Baş nazir Le Minh Hunq Prezident İlham Əliyevi səfər münasibətilə salamlayaraq Azərbaycanın sosial-iqtisadi nailiyyətlərini təqdir edib, həmçinin 1959-cu ildən başlayan dostluq münasibətlərinə və milli azadlıq mübarizəsi dövründə ölkəsinə göstərilən dəstəyə görə təşəkkürünü bildirib. Qeyd edib ki, 2025-ci ildə əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, Hökumətlərarası Komissiyanın və birgə Biznes Şurasının görüşləri əməkdaşlığın inkişafı üçün yeni imkanlar və ilkin müsbət nəticələr verib. Hazırda hər iki ölkənin şirkətləri bərpaolunan enerji, ticarət, daşınmaz əmlak və turizm sahələrində fəaliyyətə başlayıb, hökumətlər isə müdafiə, təhlükəsizlik və enerji üzrə potensialı konkret nəticələrə çevirmək üçün birgə çalışırlar.

Sonra çıxış edən Prezident İlham Əliyev Vyetnamın sosial-iqtisadi inkişafı və beynəlxalq uğurları münasibətilə təbriklərini çatdıraraq, ötən il Vyetnam Prezidentinin səfəri ilə strateji tərəfdaşlıq səviyyəsinə yüksələn əlaqələrin əhəmiyyətini vurğulayıb.

Münasibətlərimizin tarixi boyunca ölkələrimiz arasında yüksəksəviyyəli həmrəylik və dostluğun mövcud olduğunu deyən dövlətimizin başçısı Azərbaycan xalqının Vyetnamın müstəqillik və azadlıq uğurunda mübarizəsini, işğal dövründə Vyetnam xalqının göstərdiyi qəhrəmanlığı qətiyyətlə dəstəklədiyini bildirib. Qeyd edib ki, 2020-ci ildə ərazimizin işğaldan azad edilməsi uğurunda müharibə zamanı Azərbaycan da Vyetnam xalqı və Hökuməti tərəfindən eyni həmrəyliyi, eləcə də BMT Təhlükəsizlik Şurasında güclü dəstəyi görüb.

Beynəlxalq təşkilatlar çərçivəsində uğurlu qarşılıqlı fəaliyyətin həyata keçirildiyini deyən Prezident İlham Əliyev bu xüsusda Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə, həmçinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində ölkələrimiz arasında əməkdaşlığı vurğulayıb.

Söhbət zamanı Azərbaycanın Vyetnamla əməkdaşlığa hazır olduğu bildirilib, xüsusilə Azərbaycanın neft məhsullarının Vyetnama və Vyetnam ərazisindən region ölkələrinə ixrac imkanları, birgə istehsal sahələri, eyni zamanda müdafiə sənayesi sahəsində və turizm istiqamətləri üzrə əməkdaşlıq məsələləri müzakirə olunub.

Prezident İlham Əliyev Hanoyda Vyetnam Sosialist Respublikasının Milli Assambleyasının sədri Çan Tan Man ilə də görüşüb.

Dövlətimizin başçısı ölkələrimizin parlamentləri arasında dialoqun həmişə çox müsbət və nəticəyönümlü olduğunu bildirərək, Azərbaycan Milli Məclisi və Vyetnam Milli Assambleyası sədrlərinin görüşünün parlamentlərarası əməkdaşlığın genişləndirilməsi baxımından rolunu qeyd edib.

Qoşulmama Hərəkatının parlamentlərarası platformasının Azərbaycanın təşəbbüsü ilə yaradıldığını xatırladan dövlətimizin başçısı bu xüsusda iki ölkənin parlament strukturları arasında əməkdaşlığını yüksək qiymətləndirib.

Azərbaycanın Orta Dəhlizin həm vaxt, həm də təhlükəsizlik baxımından beynəlxalq daşımalarda mühüm tranzit marşrutu olduğunu deyən Prezident İlham Əliyev bunun Vyetnam şirkətlərinə də daşımalar üçün əlverişli imkanlar yaratdığını bildirib, "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat"ın önəminə toxunub.

Görüşdə ölkələrimiz arasında müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin müntəzəm səfərlərinin təşkili, iqtisadiyyat, ticarət, enerji, o cümlədən bərpaolunan enerji, insanlararası təmaslar, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olunub.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vyetnam Sosialist Respublikasının Vitse-prezidenti Vo Ti An Suan ilə görüşü olub.

Noyabrın 21-də Prezident İlham Əliyevin Vyetnam Sosialist Respublikasının paytaxtı Hanoyda rəsmi qarşılanma mərasimi olub.

Həmin gün Hanoyda Azərbaycan Prezidenti İlham Əliyev və Vyetnam Prezidenti To Lam "Azərbaycan Respublikası Prezidentinin və Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi, Vyetnam Sosialist Respublikası Prezidentinin Birgə Bəyanatı"nı qəbul ediblər.

Sonra iki dövlət arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Vyetnam Prezidenti To Lamın iştirakı ilə mübadiləsi mərasimi olub.

Hanoyda dövlət başçılarının geniş tərkibdə görüşü də olub.

Görüşdə ölkələrimiz arasında yüksəksəviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əlaqələrimizin inkişafında roluna toxunulub, yeni əməkdaşlıq mexanizmlərinin müəyyənləşdirilməsi baxımından bu səfərlərin əhəmiyyətinə diqqət çəkilib. Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, AQEM və digər təsisatlar çərçivəsində əməkdaşlığından, Azərbaycanla ASEAN arasında əlaqələrin inkişaf etdirilməsi məsələlərindən bəhs olunub.

Həmçinin enerji sahəsində, o cümlədən neft-qaz və enerji təhlükəsizliyi, bərpaolunan enerji, iqtisadiyyat, investisiyalar, turizm, təhlükəsizlik, müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq, parlamentlərarası münasibətlər, nəqliyyat-logistika, aviasiya və mədəniyyət əlaqələri ilə bağlı məsələlər müzakirə olunub. İnfrastruktur layihələri, o cümlədən Şərq-Qərb və Şimal-Cənub marşrutları üzrə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb, Trans-Xəzər marşrutunun əhəmiyyəti vurğulanıb.

Hanoyda Azərbaycan və Vyetnamın birinci xanımlarının da görüşü olub.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya, qızları Leyla Əliyevaya və Arzu Əliyevaya Hanoyun Köhnə Məhəlləsindəki (Old Quarter) XIX əsrdə tikilmiş, orijinal yaşayış memarlığını və tacir həyat tərzini əks etdirən İrs Evində Vyetnam irsinə aid əl işləri haqqında məlumat verilib.

Sonra tarixi XI əsrə gedib çıxan və UNESCO-nun Qeyri-maddi Mədəni İrs siyahısına daxil edilmiş ənənəvi ifa sənəti və Vyetnamın rəmzi milli geyimi nümayiş olunub.

Azərbaycanın birinci xanımına Vyetnam kalliqrafiya sənəti nümunəsi təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikasına rəsmi səfəri noyabrın 21-də başa çatıb.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Milli Elmlər Akademiyasının təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1107 (Cild I); 2024, № 1, maddə 97; 2025, № 6, maddə 597) ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu"nun 6-cı hissəsi aşağıdakı redaksiyada verilsin:

"6. Gəncə bölməsinin tabeliyində olan elmi müəssisələr:

6.1. Humanitar Tədqiqatlar və Diyarşünaslıq İnstitutu;

6.2. Nizami Gəncəvi Mərkəzi.".

2. Azərbaycan Milli Elmlər Akademiyası bu Qərardan irəli gələn məsələləri həll etsin.

Əli ƏSƏDOV
Azərbaycan Respublikasının Baş naziri
Bakı şəhəri, 20 noyabr 2026-cı il, № 388

Özbəkistan Ali Məclisi Senatının nümayəndə heyəti AMEA Rəyasət Heyətinin binası ilə tanış olub

İkinci Azərbaycan-Özbəkistan Parlamentlərarası Forumu çərçivəsində ölkəmizdə işgüzar səfərdə olan Özbəkistan Respublikasının Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanın başçılıq etdiyi nümayəndə heyəti noyabrın 26-da AMEA-nın Rəyasət Heyətində olub.



Qonaqları Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova və Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun bir sıra üzvləri müşayiət ediblər.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva və Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarovanı qarşılayaraq gül dəstələri təqdim edib.

Rəyasət Heyətinin yerləşdiyi ”İsmailiyyə” binası ilə tanışlıq zamanı AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru, müxbir üzv Ərtegin Salamzadə ölkə əhəmiyyətli bu abidənin tarixi və memarlıq xüsusiyyətləri barədə geniş məlumat verib. Qeyd edib ki, bina 1908-1913-cü illərdə Azərbaycanın neft milyonçusu Musa Nağıyev tərəfindən vaxtsız vəfat edən oğlu İsmayılın xatirəsinə tikdirilib. O, ”İsmailiyyə” binası kimi tanınan tikilinin inşasında orta əsrlər Avropa memarlığında geniş yayılmış Qotika üslubu ilə yanaşı, Azərbaycanın milli ornamentlərinin də istifadə edildiyini söyləyib. Diqqətə çatdırıb ki, bina 1918-ci ilin Mart hadisələri zamanı ermənilər tərəfindən yandırılıb və növbəti illərdə bərpa olunub.

Daha sonra qonaqlar AMEA-nın Rəyasət Heyətinin binasındakı Böyük akt zalı ilə tanış olublar.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli qonaqlara Azərbaycan-Özbəkistan elmi münasibətləri və qardaş ölkənin Elmlər Akademiyası ilə yenilənməkdə davam edən əlaqələri haqqında məlumat verib.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru, müxbir üzv Ərtegin Salamzadə iştirakçılara çatdırıb ki, Birinci Türkoloji Qurultay 1926-cı ilin 26 fevral-6 mart tarixlərində Bakıda məhz bu zalda keçirilib və Qurultayda Özbəkistan da təmsil olunub. Bildirib ki, sonradan Qurultayın 100-dən çox iştirakçısı repressiya qurbanı olub. O, 2026-cı ildə Qurultayın 100 illiyinin ölkəmizdə, o cümlədən Akademiyanın bu zalında Türk dünyası ziyalılarının, o cümlədən Özbəkistan alimlərinin də iştirakı ilə geniş qeyd olunduğunu söyləyib.

Həmçinin qonaqlar Azərbaycan-Özbəkistan dostluq əlaqələrini əks etdirən videoçarxa baxıblar. Tədbir zamanı Birinci Türkoloji Qurultaya və Azərbaycan-Özbəkistan elmi əlaqələrinə dair slaydlar nümayiş etdirilib.

Özbəkistan Ali Məclisi Senatının nümayəndə heyəti kitab sərgisi ilə də tanış olub. Akademik İsa Həbibbəyli uzun illər sonra aşkarlanan və AMEA-da nəşr olunan özbək əsilli dilçi alim Xalid Səid Xocayevin tərcümə etdiyi Mahmud Kaşğarinin 3 cildlik ”Divanülüğat-it-türk” əsərini qonaqların diqqətinə çatdırıb.

Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib və Özbəkistanın elm və ali təhsil ocaqları ilə əlaqələrin daha da inkişaf etdirilməsinin zəruri olduğunu deyib.

Sonda xatirə şəkilləri çəkdirilib.





AMEA ilə Kembric Universiteti arasında elmi əməkdaşlığın genişləndirilməsi müzakirə edilib

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Kembric Universitetinin nəzdindəki Kembric Mərkəzi Asiya Forumunun direktoru professor Siddharth Saxena və Böyük Britaniya Kral Cəmiyyətinin üzvü, fəlsəfə üzrə fəlsəfə doktoru Nil Uotson ilə görüşüb.



AMEA-nın Rəyasət Heyətində keçirilən görüşdə çıxış edən akademik İsa Həbibbəyli Azərbaycanla Böyük Britaniya arasında elmi və mədəni əlaqələrin genişləndirilməsi, eləcə də Nizami Gəncəvinin ədəbi irsinin Avropada tanıdılması istiqamətində həyata keçiriləcək layihələrin əhəmiyyətindən danışıb.

AMEA rəhbəri bildirib ki, birgə əməkdaşlıq çərçivəsində nəşr olunan "44 gün Qarabağ - işğaldan azadlığa" kitabından sonra Akademiya ilə britaniyalı mütəxəssislər arasında ikitərəfli əlaqələr daha da genişlənib. Qeyd edib ki, AMEA-nın Nizami Gəncəvinin həyat və yaradıcılığına həsr olunmuş nəşrlərinin - "The Great Azerbaijani Poet Nizami Ganjavi" (akademik İsa Həbibbəyli), "Ethnic Identity of Nizami Ganjavi" (akademik Gövhər Baxşəliyeva), "Nizami və Şekspir" (akademik Teymur Kərimli) - Kembric Universitetinin kitabxanasına hədiyyə edilməsi, eləcə də Kembric Universitetində həmin kitabların təqdimatının keçirilməsinin planlaşdırılması birgə əməkdaşlığın yeni mərhələsidir.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, dahi Azərbaycan şairi Nizami Gəncəvi dünya ədəbiyyatının böyük klassiklərindən biridir və onun yaradıcılığının Avropada daha geniş tanıdılması ilə yanaşı, milli mənsubiyyətinin tarixi faktlar əsasında düzgün təqdim olunması da mühüm əhəmiyyət daşıyır. O, şairin fars dilində yazmasının onun milli mənsubiyyətini müəyyənləşdirmədiyini, orta əsrlərdə fars dilinin geniş yayılmış poeziya dili olduğunu diqqətə çatdırıb. Akademik İsa Həbibbəyli qeyd edib ki, sovet dövründə ölkəmizin beynəlxalq əlaqələrinin məhdudluğu Nizami irsinin dünya miqyasında Azərbaycan ədəbiyyatının nümayəndəsi kimi tanıdılmasına müəyyən çətinliklər yaradıb.

Kembric Universitetində keçirilməsi planlaşdırılan Azərbaycan nəşrlərinin təqdimatının bu həqiqətlərin beynəlxalq elmi ictimaiyyətə çatdırılmasında mühüm rol oynayacağını deyən akademik İsa Həbibbəyli bildirib ki, Nizaminin Azərbaycan ədəbiyyatına mənsubluğu, yaradıcılığının fəlsəfi və bədii xüsusiyyətləri elmi əsaslarla beynəlxalq auditoriyaya çatdırılmalıdır.

Akademik, həmçinin Böyük Britaniyaya səfər çərçivəsində Britaniya Akademiyası ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin planlaşdırıldığını söyləyib. Diqqətə çatdırıb ki, AMEA-nın institutlarının bu əməkdaşlığa cəlb olunması, müxtəlif istiqamətlər üzrə birgə elmi layihələrin həyata keçirilməsi gələcək fəaliyyətin əsas istiqamətlərindən biri ola bilər.

Sonra çıxış edən Kembric Universitetinin nəzdindəki Kembric Mərkəzi Asiya Forumunun direktoru professor Siddharth Saxena Nizami Gəncəvinin yaradıcılığının beynəlxalq miqyasda tanıdılması təşəbbüsünü yüksək qiymətləndirib. O bildirib ki, böyük klassiklərin yaradıcılığını və milli mənsubiyyətini bir dil amili çərçivəsində qiymətləndirmək düzgün deyil.

"Əsas problem ondan ibarətdir ki, Avropa ölkələrində son 200 il ərzində xalqları və mədəniyyətləri bir ölkə və bir dil əsasında təsnif etmək ənənəsi formalaşıb: fransız, alman, ingilis və s. Buna görə də müxtəlif xalqların fərqli dillərdə danışması və tarixən çoxdilli mühitdə yaşaması bir çox avropalılar üçün yeni anlayışdır. Nizami Gəncəvi, Əl-Xarəzmi və Əmir Xosrov Dəhləvi nümunələri göstərir ki, onların fars dilində yazıb-yaratması fars mənşəli olduqları anlamına gəlmir. Bu baxımdan, sizin təşviq etdiyiniz müzakirə yalnız Azərbaycanın tanıdılması deyil, həm də mövcud düşüncə tərzinin dəyişdirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Kembricə gəlmək və təklif etdiyimiz görüş bu istiqamətdə mühüm addımdır", - deyə professor Siddharth Saxena söyləyib.

O, AMEA ilə tərəfdaşlığın onun üçün xüsusi əhəmiyyət daşıdığını qeyd edib, Elmlər Akademiyası modelinin hələ də Avropada geniş yayılmadığını bildirib: "Akademiya modelinin və bu ideyanın inkişafına, dəstəklənməsinə töhfə vermək üçün səylə çalışırıq. Hətta bu barədə Akademiyadan dəyərli bir institusional model kimi bəhs edən nəşr də hazırlamışam. Buna görə də AMEA ilə tərəfdaşlığımız bizim üçün xüsusi əhəmiyyət daşıyır".

Görüşdə, həmçinin Böyük Britaniya Kral Cəmiyyətinin üzvü, fəlsəfə üzrə fəlsəfə doktoru Nil Uotson çıxış edərək AMEA ilə Britaniya Akademiyası, eləcə də Kral Cəmiyyəti və Kral İncəsənət Cəmiyyəti arasında əməkdaşlıq əlaqələrinin qurulmasına və müvafiq görüşlərin təşkilinə köməklik göstərməyə hazır olduğunu deyib.

Daha sonra qonaqlara hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

Görüşdə AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru professor İlham Məmmədzadə, AMEA Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov və Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri fəlsəfə üzrə fəlsəfə doktoru Zöhrə Əliyeva da iştirak ediblər.

Görüşdən sonra britaniyalı alimlər AMEA-nın Rəyasət Heyətinin binası ilə tanış olublar. AMEA-nın Rəyasət Heyəti aparatının Elmin populyarlaşdırılması şöbəsinin müdiri biologiya elmləri doktoru Tubuxanım Qasımzadə və şöbənin əməkdaşları qonaqlara binanın tarixi barədə ətraflı məlumat verib, Rəyasət Heyətinin binasında yerləşən Böyük Akt zalı, Meridian zalı və Akademiya muzeyi ilə tanış ediblər.

Çinin Qansu vilayətinin UNESCO Assosiasiyasının nümayəndə heyəti ilə görüş

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Çin Xalq Respublikasının Qansu vilayətinin UNESCO Assosiasiyasının prezidenti Du Yongjunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



AMEA-nın Rəyasət Heyətinin binasında keçirilən görüşdə çıxış edən akademik İsa Həbibbəyli Azərbaycan ilə Çin arasında münasibətlərin qədim tarixi köklərə söykəndiyini, hələ qədim dövrlərdən etibarən iki ölkə arasında ticarət və mədəni əlaqələrin mövcud olduğunu diqqətə çatdırıb. Akademik İsa Həbibbəyli bu gün də Azərbaycan-Çin münasibətlərinin yüksək səviyyədə olduğunu, bu əlaqələrin inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin qarşılıqlı dostluq münasibətlərinin, siyasi iradəsinin və imzalanmış sənədlərin mühüm rol oynadığını söyləyib.

Akademik İsa Həbibbəyli bütün istiqamətlər üzrə genişlənən ikitərəfli əlaqələrin elmi və mədəni sahələrdə də yeni əməkdaşlıq imkanları yaratdığını vurğulayıb. AMEA rəhbəri ölkələrimiz arasında tarixi əlaqələrin müasir elmi tədqiqatlar vasitəsilə daha dərindən öyrənilməsinin əhəmiyyətinə toxunub. O, Nizami Gəncəvinin yaradıcılığında Çin obrazının əks olunmasına toxunub və XII əsr Azərbaycan poeziyasında Çin mədəniyyətinə verilən bədii qiymətin tarixi-mədəni əlaqələrin öyrənilməsi baxımından maraq doğurduğunu söyləyib.

Akademik İsa Həbibbəyli AMEA-da Çinin tarixi, mədəniyyəti ilə bağlı aparılan tədqiqatlar və əməkdaşlıq əlaqələri barədə də məlumat verib. Qeyd edib ki, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Çin Tədqiqatları Mərkəzi fəaliyyət göstərir. Mərkəzdə müxtəlif vaxtlarda Konfutsi İnstitutu tərəfindən Çin dili kursları təşkil olunub və indiyədək 15-dən çox Akademiya əməkdaşı bu kurslarda iştirak edib. Onlardan bir neçəsi Çində universitetlərdə təhsil proqramlarına qatılaraq müvafiq sertifikatlar əldə edib. Bundan əlavə, Ədəbiyyat İnstitutunda Çin şairlərinin XX əsrin ikinci yarısında Azərbaycan haqqında yazdıqları şeirlər və hekayələr, eləcə də azərbaycanlı müəlliflərin Çin mövzusunda qələmə aldıqları bədii əsərlərin toplanaraq ayrıca kitab şəklində nəşrə hazırlandığını və 2027-ci ildə çap olunacağını söyləyib. AMEA rəhbəri, həmçinin Ədəbiyyat İnstitutunda "Azərbaycan ədəbiyyatında Çin arxetipləri" mövzusunun tədqiq olunduğunu, bu istiqamətdə Nərgiz Kərimovanın dissertasiya müdafiə edərək fəlsəfə doktoru elmi dərəcəsi aldığını bildirib. Şərqşünaslıq İnstitutunda isə Çinlə Azərbaycan arasında tarixi, iqtisadi və mədəni əlaqələrin sistemli şəkildə araşdırıldığını diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli AMEA ilə Çin Sosial Elmlər Akademiyası arasında 2016-cı ildə imzalanmış əməkdaşlıq müqaviləsinin dəyişən müasir elmi çağırışlar və genişlənmiş əlaqələr çərçivəsində yenilənməsinin vacibliyini vurğulayıb. Həmçinin AMEA ilə Honkonq Kore Akademiyası, Hebey Pedaqoji Universiteti və Pekin Xarici Dillər Universiteti arasında mövcud əməkdaşlıq münasibətlərindən danışıb.

AMEA prezidenti əməkdaşlığın yeni mərhələsində humanitar və ictimai elmlərlə yanaşı, rəqəmsal inkişaf və süni intellekt sahələrinin də prioritet istiqamətlərdən biri olduğunu deyib. Akademiyada Rəqəmsal Akademiya, Süni intellekt və Elektron Xidmətlər Mərkəzinin fəaliyyət göstərdiyini bildirən akademik bu sahədə Çinin elmi müəssisələri ilə birgə tədqiqatların aparılması üçün geniş imkanların olduğunu vurğulayıb. Xüsusilə süni intellekt və rəqəmsal texnologiyaların humanitar və ictimai elmlərin tədqiqinə tətbiqi, eləcə də bərpa olunan enerji və digər innovativ sahələr üzrə təcrübə mübadiləsinin əhəmiyyətini qeyd edib.

Akademik İsa Həbibbəyli qonaqların təklif etdiyi "Çin və Azərbaycan arasında dostluq və dostluq münasibətlərinin tarixi" kitabının hazırlanması layihəsini dəstəklədiyini bildirib. Təklif olunan layihədə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Tarix və Etnologiya İnstitutu, Şərqşünaslıq İnstitutu və Fəlsəfə və Sosiologiya İnstitutunun iştirak edə biləcəyini qeyd edib. Layihənin ilkin plan-prospektinin müvafiq elmi müəssisələrin təklif və əlavələri əsasında yekunlaşdırılmasını, daha sonra fəsillərin müəlliflərinin müəyyənləşdirilməsini, nəşrin 2027-ci ildə Azərbaycan və Çin dillərində çapını məqsədəuyğun hesab edib.

Çin Xalq Respublikasının Qansu vilayətinin UNESCO Assosiasiyasının prezidenti Du Yongjun çıxışında Azərbaycan-Çin münasibətlərinin müxtəlif sahələrdə inkişaf etdiyini və bu əlaqələrin tarixi-mədəni aspektlərinin birgə nəşrlər vasitəsilə daha geniş auditoriyaya çatdırılmasının vacibliyini bildirib. O, Çin ilə digər ölkələr arasında dostluq münasibətlərinin tarixindən bəhs edən üç kitabın - Belarus, Qazaxıstan və Tacikistanla bağlı nəşrlərin artıq hazırlandığını, növbəti kitabın isə Azərbaycanla əlaqələrə həsr olunacağını qeyd edib.

Du Yongjun gələn il Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının 35 illiyinin qeyd ediləcəyini xatırladaraq, "Çin və Azərbaycan arasında dostluq və dostluq münasibətlərinin tarixi" kitabının 2027-ci ildə tamamlanmasının və yubiley çərçivəsində təqdim olunmasının əhəmiyyətini vurğulayıb. O, nəşrdə iki ölkə arasında tarixi, mədəni, texniki və iqtisadi əlaqələrin əks etdiriləcəyini bildirib. Qansu vilayətinin UNESCO Assosiasiyası ilə AMEA arasında müvafiq əməkdaşlıq sənədinin imzalanmasını və kitab üzərində işə tezliklə başlanılmasını təklif edib.

Qonaq gələcək əməkdaşlıq çərçivəsində süni intellekt, müasir texnologiyalar, bərpa olunan enerji və s. sahələrdə əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

Daha sonra AMEA-nın Rəyasət Heyəti aparatının Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər şöbəsinin müdiri riyaziyyat üzrə fəlsəfə doktoru Fariz İmranov, AMEA-nın Rəyasət Heyətinin elmi katibi iqtisad üzrə fəlsəfə doktoru Coşqun Məmmədov və AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini filologiya elmləri doktoru Mehman Həsənli çıxış edərək AMEA-da süni intellekt və rəqəmsal inkişaf, bərpa olunan enerji mənbələri, eləcə də Çin ədəbiyyatı istiqamətində aparılan tədqiqatlar barədə məlumat verib, sözügedən sahələrdə əməkdaşlıq imkanlarını diqqətə çatdırıblar.

Çıxışlardan sonra qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

Akademik İsa Həbibbəyli AMEA Rəyasət Heyətinin Elmin populyarlaşdırılması şöbəsinin əməkdaşı Cəmaləddin İsmayılovun Nizami Gəncəvinin "Yeddi gözəl" poemasının motivləri əsasında yaratdığı "Çin gözəli" portretini Ədəbiyyat İnstitutunun Çin Tədqiqatları Mərkəzinə təqdim edib.

Qonaq, həmçinin AMEA-nın Rəyasət Heyətinin binası, buradakı Rəqəmsal Akademiya, Süni intellekt və Elektron xidmətlər Mərkəzi ilə tanış olub, AMEA-nın tarixi barədə məlumat alıblar.

Görüşdə, həmçinin Qansu vilayətinin UNESCO Assosiasiyasının Şura üzvləri - Zhang Junbao, An Mandong, tərcüməçi Song Guangxiao, o cümlədən AMEA-nın Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq elmi təşkilatlarla iş şöbəsinin müdiri biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, Elm və təhsil şöbəsinin müdiri filologiya elmləri doktoru Sərxan Xavəri və İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov da iştirak ediblər.

Sərdar Berdiməhəmmədovun Türkmənistanın bitərəflik siyasətinə dair kitabının Azərbaycan dilində təqdimatı

Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun "Türkmənistanın bitərəfliyi - sülh və etimadın işıqlı yolu" kitabının Azərbaycan dilinə tərcümə edilmiş nəşrinin təqdimatı olub.





Tədbirdə çıxış edən Türkmənistanın Azərbaycandakı səfiri Qurbanməmmet Elyasov Azərbaycan və Türkmənistan arasında əməkdaşlığın bütün istiqamətlər üzrə inkişaf etdiyini, bu əlaqələrdə mədəni-humanitar sahənin xüsusi rol oynadığını bildirib.

O qeyd edib ki, kitabın Azərbaycan dilinə tərcüməsi iki ölkə arasında mədəni əlaqələrin bariz nümunəsidir. Əsərdə Türkmənistanın bitərəflik siyasətinin mahiyyəti, beynəlxalq münasibətlərdəki rolu, sülh və təhlükəsizlik prinsiplərinə əsaslanan təcrübəsi əks olunub.

Səfir bildirib ki, 1995-ci il dekabrın 12-də BMT Baş Assambleyası tərəfindən Türkmənistanın daimi bitərəfliyinə dair qətnamənin yekdilliklə qəbul edilməsi ölkənin beynəlxalq statusunun əsasını qoyub. Bitərəflik siyasəti ölkənin suverenliyinin qorunmasına, regional və qlobal təhlükəsizliyin möhkəmləndirilməsinə, beynəlxalq problemlərin siyasi-diplomatik yollarla həllinə xidmət edir.

Sonra Azərbaycanın xarici işlər nazirinin müavini Samir Şərifov çıxış edərək əsərin Azərbaycan dilində nəşrini xalqlarımızı birləşdirən tarixi, mədəni və mənəvi yaxınlığın, qarşılıqlı maraq və hörmətin ifadəsi kimi qiymətləndirib. O vurğulayıb ki, kitab Türkmənistanın müstəqillik illərində həyata keçirdiyi daimi bitərəflik siyasətindən, onun mahiyyətindən və beynəlxalq münasibətlərdəki yerindən bəhs edir. Nazir müavini Azərbaycanın Türkmənistanın daimi bitərəflik siyasətinə böyük hörmətlə yanaşdığını və ölkənin sülhə, qarşılıqlı etimada xidmət edən beynəlxalq təşəbbüslərini dəstəklədiyini bildirib.

Samir Şərifov əsərin Azərbaycan dilində nəşrinin oxuculara Türkmənistanın dövlətçilik təcrübəsini və xarici siyasət baxışlarını daha yaxından tanımaq imkanı yaradacağına, xalqlarımız arasında qarşılıqlı anlaşmanın və dostluğun möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli çıxış edərək, vurğulayıb ki, Türkmənistan Prezidentinin "Türkmənistanın bitərəfliyi: sülhün və etimadın işıqlı yolu" kitabının Azərbaycan dilində nəşri Azərbaycan-Türkmənistan münasibətlərinin, həmçinin türk xalqları arasında tarixi, mədəni və mənəvi bağların möhkəmlənməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Daha sonra Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Musa Mirzəyev, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanov, Milli Məclisin deputatları Tənzilə Rüstəmxanlı və Hikmət Babaoğlu çıxış ediblər. Çıxışlarda vurğulanıb ki, əsər Türkmənistanın dövlətçilik təcrübəsi, xarici siyasət prioritetləri, zəngin tarixi və milli-mədəni irsi ilə tanış olmaq üçün dəyərli mənbə kimi qiymətləndirilib. Nəşr iki qardaş xalq arasında qarşılıqlı anlaşmanın, dostluğun və əməkdaşlığın daha da inkişafına töhfə verəcək.

Akademik Aslan Aslanov: görkəmli filosof, estetik-antikşünas və şair

Noyabrın 25-də AMEA-nın Əsas binasında görkəmli filosof alim, Əməkdar elm xadimi, akademik Aslan Aslanovun 100 illik yubileyinə həsr olunan "Akademik Aslan Aslanov: görkəmli filosof, estetik-antikşünas və şair" mövzusunda elmi sessiya keçirilib.





Tədbir AMEA Rəyasət Heyəti, İctimai Elmlər Bölməsi, eləcə də Fəlsəfə və Sosiologiya İnstitutunun birgə təşkilatçılığı ilə baş tutub.

Əvvəlcə akademik Aslan Aslanovun xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Elmi sessiyanı giriş nitqi ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Azərbaycanda müasir estetika elminin formalaşması və inkişafında mühüm rol oynamış Aslan Aslanovun həyatı və zəngin elmi irsi barədə məlumat verib.

Akademik Aslan Aslanovun ölkəmizdə fəlsəfə elminin inkişafına böyük töhfələr vermiş görkəmli elm xadimi olduğunu vurğulayan AMEA rəhbəri qeyd edib ki, filosof alimin xüsusən estetika elminin inkişafı sahəsindəki fəaliyyəti bu elmi istiqamətin Azərbaycanda təbliğinə, tədrisinə, eləcə də yeni elmi nəslin hazırlanmasına xidmətin nümunəsi olmuşdur. Aslan Aslanovun estetika üzrə əsərləri dövründə aktual olduğu kimi, bu gün üçün də müasir və əhəmiyyətlidir.

AMEA rəhbəri akademik Aslan Aslanovun həm də dünya fəlsəfi-estetik irsinin milli mühitdə araşdırılması və təbliğində mühüm rol oynamış görkəmli filosof olduğunu deyərək, onun antik yunan filosofu Aristotelin məşhur "Poetika" əsərini Azərbaycan dilinə tərcümə etməsini, ona geniş "Ön söz" və elmi şərhlər yazaraq nəşr etdirməsini Azərbaycan elmi-fəlsəfi mühiti üçün əlamətdar hadisə kimi səciyyələndirib. Bildirib ki, Aslan Aslanovun həm Aristotel, həm də "Poetika" kitabı haqqında yazdığı müqəddimə və elmi şərhlər onun dünya fəlsəfi fikrinə, Aristotel təliminə nə qədər dərindən bələd olduğunu aydın şəkildə nümayiş etdirir.

"Akademik Aslan Aslanov ədəbiyyatşünaslığın təməl kitabı və şah əsəri sayılan "Poetika" kitabını Azərbaycan dilində nəşr etdirməklə təkcə fəlsəfə və estetika elminin deyil, ədəbiyyatşünaslıq elminin də inkişafına xidmət göstərmişdir", - deyə AMEA prezidenti bildirib.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, filosof-şair Aslan Aslanovun yaradıcılığı Azərbaycan ədəbiyyatı və musiqi mədəniyyəti ilə də sıx bağlıdır. Alimin elmi-fəlsəfi fəaliyyəti ilə yanaşı, onun zəngin poetik irsi və sözlərinə bəstələnən mahnılar bu gün də aktuallığını qoruyur.

Onun sözlərinə görə, akademik Aslan Aslanovun yaradıcılığı Azərbaycan elmi-fəlsəfi fikri ilə bədii-estetik düşüncəsinin vəhdətini əks etdirən nadir nümunələrdəndir. Peşəkar filosof, estetik alim və incəsənət nəzəriyyəçisi kimi Aslan Aslanovun poeziyası sadəcə hiss və duyğuların ifadəsi deyil, həm də dərin fəlsəfi ümumiləşdirmələrin bədii təcəssümüdür. Görkəmli alim nəzəri biliklərini bədii sözün qüdrəti ilə birləşdirə bilmişdir. Onun şeirlərində fəlsəfi məntiq ilə poetik intuisiya bir-birini tamamlayır.

Filosof alimin AMEA-nın inkişafındakı xidmətlərindən də bəhs edən akademik İsa Həbibbəyli onun uzun illər Fəlsəfə və Hüquq İnstitutuna uğurla rəhbərlik etdiyini, həmçinin Akademiyanın Tarix, İqtisadiyyat, Fəlsəfə və Hüquq Bölməsinin akademik-katibi olduğunu xatırladıb. Vurğulayıb ki, akademik Aslan Aslanov AMEA-da humanitar və ictimai elmlər sahəsinin inkişafında, elmi-təşkilati fəaliyyətin gücləndirilməsində və beynəlxalq elmi əlaqələrin genişləndirilməsində mühüm rol oynayıb. O, bacarıqlı elm və təhsil təşkilatçısı kimi tanınıb, M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun rektoru olub.

Aslan Aslanovun yüksək insani keyfiyyətlərindən danışan akademik İsa Həbibbəyli onun müasirlərinin, tələbələrinin və həmkarlarının xatirəsində parlaq zəkası ilə yanaşı, yüksək mənəviyyatı, təvazökarlığı və insanpərvərliyi ilə dərin iz buraxmış ziyalılardan olduğunu vurğulayıb. AMEA rəhbəri akademik Aslan Aslanovun şəxsiyyətinin, şeirləri və elmi fəaliyyətinin bir-birini üzvi surətdə tamamladığını bildirib.

Sonra Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov çıxış edərək filosof-alimin mənalı həyat yolu və çoxşaxəli fəaliyyətindən danışıb.

Akademik Rafael Hüseynov Aslan Aslanovu yalnız elmi fəaliyyətindən tanımadığını, onunla yaxın ailə münasibətləri vasitəsilə də bağlı olduğunu bildirərək mərhum alim haqqında xatirələrini bölüşüb. O, Aslan Aslanovun Azərbaycanın ilk peşəkar fəlsəfə təhsili almış ziyalılar nəslinin nümayəndələrindən biri kimi formalaşdığını diqqətə çatdırıb.

Aslan Aslanovun elmi fəaliyyətinin mühüm istiqamətlərindən birinin fəlsəfə və estetika elminin geniş auditoriyaya çatdırılması olduğunu söyləyən akademik Rafael Hüseynov alimin maarifçilik missiyasına xüsusi diqqət çəkib. Bildirib ki, Aslan Aslanov fəlsəfi bilikləri insanların gündəlik düşüncə və mənəvi dünyasına yaxınlaşdırmağa çalışıb, bu istiqamətdə yazdığı əsərlərlə Azərbaycan elmi fikrinin zənginləşməsinə töhfələr verib.

Alim, həmçinin akademik Aslan Aslanovun Azərbaycan Dövlət İncəsənət İnstitutunun rektoru olduğu dövrdəki fəaliyyəti, tələbələrə və müəllimlərə göstərdiyi qayğı, elm və təhsil təşkilatçısı kimi xidmətlərinə toxunub, görkəmli alimin insanlara həssas münasibəti ilə seçilən şəxsiyyət olduğunu vurğulayıb.

Aslan Aslanovun poeziyasının xüsusiyyətlərindən bəhs edən akademik Rafael Hüseynov onun yaradıcılığında gözəllik anlayışının xüsusi yer tutduğunu bildirib. O, alimin şeirlərindəki estetik düşüncənin onun fəlsəfi baxışları ilə vəhdət təşkil etdiyini qeyd edib. Bu baxımdan Aslan Aslanovun həm elmi, həm də ədəbi irsinin vahid mənəvi dünyadan qaynaqlandığını diqqətə çatdırıb.

Sonda akademik Rafael Hüseynov Aslan Aslanovun şəxsiyyətini səciyyələndirən əsas cəhətin onun yüksək insani keyfiyyətləri olduğunu qeyd edib. Görkəmli filosofun alim, müəllim və elm təşkilatçısı kimi fəaliyyətinin, insanlara qayğıkeş münasibətinin yaddaşlarda daim yaşayacağını vurğulayıb.

Tədbirdə AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə "Akademik Aslan Aslanov - filosof, şair, elm təşkilatçısı", həmin institutun Estetika şöbəsinin müdiri, professor Adil Əsədov "Azərbaycanda estetika elminin ilk himayəçisi və görkəmli nümayəndəsi", İdentiklik, multikulturalizm və azərbaycançılıq fəlsəfəsi şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru, dosent Xatirə Quliyeva "Milli estetik fikrin Aslan Aslanov dəyəri" və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, kulturoloq, sənətşünas-tənqidçi Əbülfəz Babazadə "Akademik Aslan Aslanovun estetik irsinin XXI əsrdə aktuallığı" mövzusunda məruzələrlə çıxış ediblər.

Elmi sessiyada Azərbaycan Texniki Universitetinin Təhsil və metodologiyalar üzrə müşaviri, professor İlham Pirməmmədov və AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Vahid Ömərov çıxış edərək Azərbaycan elm və təhsilinin görkəmli simalarından olan Aslan Aslanovun çoxşaxəli yaradılığından, yüksəkixtisaslı kadrların hazırlanmasındakı rolundan bəhs ediblər.

Sonda Aslan Aslanovun nəvəsi Lenay Seidəli-Zadə çıxış edərək babasının xatirəsinə göstərilən yüksək hörmət və ehtirama görə tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

Tədbir çərçivəsində akademik Aslan Aslanovun əsərlərindən ibarət sərgi də nümayiş etdirilib.

"Qobustan" jurnalının xüsusi buraxılışı

Azərbaycan Yazıçılar Birliyində (AYB) "Qobustan" jurnalının "Molla Nəsrəddin" jurnalının 120 illiyinə həsr edilmiş xüsusi buraxılışının təqdimatı olub.



Təqdimat mərasimində çıxış edən AYB-nin sədri, Xalq yazıçısı Anar "Qobustan" jurnalının Azərbaycan mədəniyyətində və ədəbiyyatında xüsusi yeri olduğunu vurğulayıb. Bildirib ki, jurnal milli mədəniyyətin, incəsənətin və ədəbiyyatın təbliğinə, istedadlı gənclərin üzə çıxarılmasına və onların yaradıcılığının dəstəklənməsinə mühüm töhfələr verib."Qobustan"ın bu ənənələri qoruyub saxladığını deyən Xalq yazıçısı nəşrin "Molla Nəsrəddin" jurnalının 120 illiyinə həsr edilmiş xüsusi buraxılışının böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Sonra AMEA-nın prezidenti akademik İsa Həbibbəyli "Molla Nəsrəddin" jurnalının Azərbaycan ədəbiyyatı və mədəniyyətindəki rolundan bəhs edib. Bildirib ki, jurnal yarandığı dövrdən etibarən milli ədəbi-bədii fikrin və ictimai şüurun formalaşmasında, azərbaycançılıq ideyalarının təbliğində və yeni ədəbi-estetik baxışların inkişafında mühüm yer tutub.

AMEA rəhbəri vurğulayıb ki, "Molla Nəsrəddin" jurnalı Azərbaycan ədəbiyyatında həm ədəbi məktəbin, həm də ədəbi cərəyanın formalaşmasında müstəsna rol oynayıb. O, nəşri Azərbaycanda tənqidi realizm ədəbi cərəyanının beşiyi kimi səciyyələndirib, "Molla Nəsrəddin" ideyalarının bu gün də yaşadığını və cəmiyyətimizin inkişafına təsir göstərdiyini bildirib.

Akademik İsa Həbibbəyli Azərbaycan Yazıçılar Birliyinin ədəbi orqanı olan "Qobustan" jurnalının yalnız poeziya nümunələrinin dərc olunduğu nəşr deyil, bütövlükdə Azərbaycan ədəbiyyatını, incəsənətini və mədəniyyətini əhatə edən, müxtəlif yaradıcı sahələri bir araya gətirən ədəbi-mədəni platforma olduğunu diqqətə çatdırıb.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov "Molla Nəsrəddin" jurnalının irsinin qorunması və tədqiqi istiqamətində görülən işlərə də toxunub. Bildirib ki, Mədəniyyət Nazirliyi tərəfindən yubileylə əlaqədar müxtəlif tədbirlər təşkil olunub, jurnalın nəşrlərinin mühafizəsi, araşdırılması və ictimaiyyətə təqdim edilməsi istiqamətində fəaliyyət həyata keçirilib. O, nəşrin müxtəlif nömrələrinin tədqiqatçılar üçün mühüm mənbə olduğunu deyib, onların sərgilər və nəşrlər vasitəsilə geniş ictimaiyyətə çatdırılmasının əhəmiyyətini qeyd edib.

Tədbirdə, həmçinin Xalq rəssamı Arif Hüseynov, Xalq yazıçısı Çingiz Abdullayev, professor Asif Rüstəmli, Xalq artisti Ramiz Həsənoğlu, AYB-nin katibi Səlim Babullaoğlu, elmlər doktoru Gülbəniz Babayeva və başqaları çıxış ediblər. Çıxışlarda "Molla Nəsrəddin" jurnalının Azərbaycan ədəbiyyatı, satirik mətbuatı və ictimai fikir tarixindəki müstəsna mövqeyi, nəşrin milli-mənəvi dəyərlərin formalaşmasına təsiri, Cəlil Məmmədquluzadə və mollanəsrəddinçilərin yaradıcılıq irsinin aktuallığı diqqətə çatdırılıb.

Sonda "Qobustan" jurnalının baş redaktoru, tanınmış yazıçı-dramaturq Pərvin Nurəliyeva çıxış edib. O, "Söz müəlliflərdə" layihəsindən bəhs edərək vurğulayıb ki, layihə çərçivəsində ilk dəfə mətbuatda yazısı dərc olunan 100-dən artıq gənc və istedadlı yazara jurnalda yer verilib.

Tanınmış şair Nazim Aslanın "Bir sevginin taleyi" kitabı təqdim olunub







Noyabrın 19-da AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanınmış neftçi alim, mühəndis, ictimai xadim və şair Nazim Aslanın "Bir sevginin taleyi" adlı kitabının təqdimat mərasimi keçirilib.

Tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli çıxış edərək neft mövzusunun Azərbaycan ədəbiyyatında və incəsənətində tutduğu xüsusi yerdən, neftçilərin fədakar əməyinin bədii sözə gətirilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, neft Azərbaycan tarixinin, iqtisadiyyatının və ictimai həyatının mühüm amillərindən biri olmaqla yanaşı, milli ədəbiyyatımızda da özünəməxsus mövzuya çevrilib. Bakı və Abşeronun neftlə bağlı tarixi, neftçilərin zəhməti, onların peşə fədakarlığı və qəhrəmanlığı müxtəlif dövrlərdə yazıçı və şairlərin yaradıcılığında əksini tapıb. Bu baxımdan həm neft sənayesində çalışan, həm də poetik yaradıcılıqla məşğul olan insanların fəaliyyəti xüsusi maraq doğurur.

AMEA rəhbəri qeyd edib ki, şeir yalnız hiss və duyğuların ifadəsi deyil, həm də insanın dünyagörüşünü, həyata münasibətini, mənəvi dəyərlərini əks etdirən sənət nümunəsidir. Ədəbiyyatda məzmun dərinliyi ilə yanaşı, yüksək bədii sənətkarlıq da mühüm əhəmiyyət daşıyır. Akademik İsa Həbibbəyli vurğulayıb ki, Nazim Aslanın yaradıcılığında insan, Vətən, sevgi və həyat kimi ümumbəşəri mövzuların özünəməxsus poetik ifadəsi şairin sənət dünyasının zənginliyini müəyyənləşdirir.

Nazim Aslanın şəxsiyyətindən və yaradıcılığından bəhs edən AMEA prezidenti onun həm neftçi-mühəndis, həm də şair kimi formalaşmasının maraqlı vəhdət yaratdığını söyləyib. Bildirib ki, Nazim Aslanın həyat yolu Azərbaycan neft sənayesinin inkişafı ilə sıx bağlıdır. Onun uzun illər ərzində neft sənayesində çalışması, elmi fəaliyyətlə məşğul olması və bu sahədə qazandığı nailiyyətlər peşəkar mühəndis kimi nüfuzunu təsdiqləyir. Bununla yanaşı, həssas poetik düşüncəyə malik olması şairin şəxsiyyətinin digər mühüm tərəfini üzə çıxarır.

Akademik İsa Həbibbəyli çıxışında da Nazim Aslanın Azərbaycan neft sənayesinin inkişafına verdiyi töhfələri, beynəlxalq elmi əlaqələri və müxtəlif mükafatlara layiq görülməsini şairin peşəkar fəaliyyətinin əhəmiyyətini göstərən amillər kimi dəyərləndirib. O, müasir dövrdə neft amilinin ölkənin iqtisadi inkişafındakı rolundan da bəhs edərək bildirib ki, neft sənayesi yalnız iqtisadiyyatın deyil, həm də Azərbaycanın elmi-texniki potensialının və milli inkişaf tarixinin mühüm istiqamətlərindən biridir. Bu sahədə çalışan insanların təcrübəsi, zəhməti və yaratdıqları dəyərlər ədəbiyyat üçün də zəngin mövzu mənbəyidir.

Nazim Aslanın poetik yaradıcılığından danışan AMEA rəhbəri onun 2001-ci ildə çap olunmuş "Sənsiz yaşamağa dəyməz" və 2011-ci ildə işıq üzü görmüş "İzin qalacaq" şeir kitablarını xatırladıb. Qeyd edib ki, "Bir sevginin taleyi" kitabı da müəllifin poetik dünyasının davamı kimi sevgi, insan, Vətən və həyat mövzularına müraciəti ilə diqqət çəkir. Kitabın adı və məzmunu insanın mənəvi aləminə, sevginin həyatdakı yerinə və taleyə çevrilən duyğuların bədii ifadəsinə işarə edir.

Akademik İsa Həbibbəyli çıxışının sonunda Nazim Aslana elmi və mühəndislik fəaliyyəti ilə yanaşı, bədii yaradıcılığında da uğurlar arzulayıb, "Bir sevginin taleyi" kitabının oxucular tərəfindən maraqla qarşılanacağına əminliyini ifadə edib.

Sonra Nazim Aslanın "Yeddi qapı" poeması əsasında fonepoetik kompozisiya təqdim olunub.

Daha sonra AMEA Rəyasət Heyəti Aparatının Elm və təhsil şöbəsinin müdiri, filologiya elmləri doktoru Sərxan Xavəri "Nazim Aslan: ömrün poeziyası və ya poeziyanın ömrü" adlı məruzə ilə çıxış edib.

Tədbirdə, həmçinin SOCAR prezidentinin müşaviri Racu Vəliyev, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini, filologiya elmləri doktoru Mehman Həsənli, AYB-nin Poeziya şöbəsinin rəhbəri, Əli Kərim adına Sumqayıt poeziya evinin direktoru, şair İbrahim İlyaslı, AMEA-nın Folklor İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Mətanət Abbasova, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist, araşdırmaçı Mikayıl Bozal, "Xalq qəzeti"nin əməkdaşı jurnalist Namiq Əhmədov, Azərbaycan Aşıqlar Birliyinin üzvü, fəlsəfə doktoru Eldar Ələsgəroğlu (Tağıyev), eləcə də AMEA Mərkəzi Elmi Kitabxananın şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Aytən Əliyeva çıxış ediblər.

Çıxışlarda Nazim Aslanın çoxşaxəli fəaliyyətindən, neft sənayesinin inkişafına verdiyi töhfələrdən və elmi nailiyyətlərindən bəhs olunub. Bildirilib ki, "Bir sevginin taleyi" kitabı müəllifin poetik düşüncələrinin, zəngin mənəvi dünyasının və həyata həssas münasibətinin ifadəsi olmaqla oxucuları duyğular, xatirələr və düşüncələr aləminə aparır.

Sonda şair Nazim Aslan çıxış edərək poeziyanın insanın daxili dünyasının, hiss və düşüncələrinin ifadəsindəki rolundan danışıb, təqdimat mərasiminin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib.

Azərbaycan-İraq türkmanları arasında tarixi, mədəni və ictimai əlaqələr
beynəlxalq elmi konfrans

Noyabrın 20-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun və Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyasının təşkilatçılığı ilə "Azərbaycan-İraq türkmanları arasında tarixi, mədəni və ictimai əlaqələr" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.



Konfrans öz işinə Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Kofransa sədrlik edən AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva Azərbaycan və İraq türkmanları arasında tarixi və mədəni əlaqələrin çox zəngin və çoxşaxəli olduğunu deyərək, bu əlaqələrin köklərinin qədim dövrlərə gedib çıxdığını, əsasən orta əsrlərdən başlayaraq siyasi, etnik və mədəni istiqamətlərdə inkişaf etdiyini bildirib.

Bu əlaqələrin əsas mənbəyinin ortaq Oğuz türklüyü, birgə dövlətçilik tarixi və müasir dövrdəki mədəni əməkdaşlıq olduğunu söyləyən akademik Azərbaycan və İraq-türkman əlaqələrinin inkişafında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətlərini xüsusilə qeyd edib və Ulu Öndərin təşəbbüsü ilə 1994-cü ildə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyinin qeyd edilməsi ilə əlaqədar olaraq dövlət dəstəyi sayəsində İraqda həyata keçirilən tədbirlərin bu istiqamətdə böyük hadisə olduğunu nəzərə çatdırıb. G.Baxşəliyeva bildirib ki, son illərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı və səyləri nəticəsində Azərbaycanın türk dövlətləri ilə əlaqələri genişlənib və ölkəmizin qarşılıqlı əməkdaşlığının hədəfləndiyi türk xalqlarından biri də heç şübhəsiz ki, İraq türkmanlarıdır. İraqda yaşayan türkmanlarla elmi əlaqələrin qurulmasının yaxın perspektivdə qarşıda duran əsas hədəflərdən olduğunu deyən akademik G.Baxşəliyeva Şərqşünaslıq İnstitutu da elmi müəssisə kimi İraq türkmanlarının tarixi, dili və ədəbiyyatı sahəsində aparılan tədqiqatlarda, o cümlədən iki qardaş xalq arasında əlaqələrin inkişaf etdirilməsində fəal iştirak etdiyini diqqətə çatdırıb.

Avrasiya Beynəlxalq İnkişaf Assosiasiyasının (ABİA) sədri, fəlsəfə doktoru Elçin Əsgərov azərbaycanlılarla İraq türkmanlarının eyni kökə, eyni dilə sahib olmasını deyərək, türkmanların dilinin qorunması üçün mühüm addımların atılmasının labüdlüyünü qeyd edib və bu istiqamətdə ABİA-nın Şərqşünaslıq İnstitutu ilə birgə gördüyü işlərdən bəhs edib.

Daha sonra məruzələrə başlanılıb. Bağdad Universitetinin professoru Mahmud Xəlil Cəfər Çayırlı konfransda "İraq türkmanlarının dil problemləri: İraq orta təhsil müəssisələrində türkman dilinin tədrisi vəziyyəti", Şərqşünaslıq İnstitutunun direktor müavini, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Elnur Mustafayev "Milli kimliyin qorunmasında dil amilinin rolu və İraq türkmanlarının dil problemləri: reallıqlar və perspektivlər", "Türkman mədəniyyəti" jurnalının baş redaktoru Sabah Kərküklü konfransda "Azərbaycan və İraq türkmanları arasında ədəbi əlaqələrin formalaşması və inkişaf dinamikası", Şərqşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Ruhəngiz Cümşüdlü "Məhəmməd Füzuli: Azərbaycan və İraq türkmanlarının ortaq mənəvi dəyəri" mövzusunda məruzələri dinlənilib

Konfransda həmçinin müstəqil araşdırmaçı, yazar Mehdi Saadunun "Azərbaycan-İraq türkmanlarının mənşəyi və müştərək dövlətçilik ənənələri" və Körpü - Türkman İrsi Araşdırmalar Mərkəzinin sədri, filologiya üzrə fəlsəfə doktoru Orxan İsayevin "Türkman etnoittifaqdan etnik kimliyə" mövzusunda məruzələri dinlənib. Sonda məruzələr ətrafında müzakirələrin iştirakçıları, o cümlədən İraqdan olan qonaqlar - İraq Gənclər və İdman Nazirliyinin baş direktorunun müavini doktor Muhəmməd Macul Şəkur əl-Bayati, Telafer şəhərinin meri Xəlil Möhsin əl-Həbiş və İraq Parlamentinin 4-cü çağırış deputatı Ləyal Muhəmməd Əli Yunis İraq türkmanlarının dilinin qorunması üçün atılan addımların əhəmiyyətini vurğulayıblar.

Akademik Adilə Namazovanın 100 illiyi qeyd olunub



Azərbaycan Tibb Universitetində (ATU) görkəmli alim, akademik, tibb elmləri doktoru, professor Adilə Namazovanın anadan olmasının 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.

Konfransın açılış mərasimində səhiyyə naziri Anar Bayramovun salamlarını konfrans iştirakçılarına çatdıran nazir müavini İlqar Qasımov bildirib ki, Adilə Namazovanın adı Azərbaycan səhiyyəsinin, xüsusilə pediatriya elminin inkişaf tarixinə qızıl hərflərlə yazılıb. O, alimin çox sayda elmi əsərinin, uzun illər davam edən pedaqoji fəaliyyətinin, həkim-pediatrların yetişdirilməsinə və ölkəmizdə güclü pediatriya məktəbinin formalaşmasına verdiyi töhfələrin əhəmiyyətini vurğulayıb. Həmçinin tarixi irsin, keçmişin və fədakar insanların xidmətlərinin unudulmamasının vacibliyini qeyd edib.

Ana və uşaq sağlamlığının qorunmasının Azərbaycan dövlətinin siyasətində prioritet istiqamətlərdən biri olduğunu da xatırladan nazir müavini uşaqların sağlam böyüməsi və xəstəliklərin profilaktikasının daim diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini diqqətə çatdırıb.

İlqar Qasımov çıxışının sonunda Adilə Namazovanın zəngin elmi irsinin və pedaqoji fəaliyyətinin gələcək nəsil həkimlər üçün bundan sonra da örnək olacağına, alimin yaratdığı elmi ənənələrin daim yaşayacağına əminliyini ifadə edib.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli çıxışında akademik Adilə Namazovanın həyat və fəaliyyətinin Azərbaycan tibb elminin inkişafındakı müstəsna rolundan danışıb.

Rektor Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, tibb elmləri doktoru, professor, əməkdar elm xadimi, Azərbaycan Dövlət Mükafatı laureatı Adilə Namazovanın ölkəmizin tibb elminin görkəmli simalarından biri olduğunu xüsusi vurğulayıb. Gəray Gəraybəyli qeyd edib ki, Adilə Namazovanın adı Azərbaycan pediatriyasının inkişaf tarixi ilə ayrılmaz şəkildə bağlıdır. O, elmi fəaliyyəti, klinik təfəkkürü, pedaqoji yanaşması və təşkilatçılıq bacarığı ilə milli pediatriya elminin formalaşmasına və institusional inkişafına mühüm töhfələr verib.

ATU rəhbəri Adilə Namazovanın Azərbaycan tibb elmi qarşısında ən böyük xidmətlərindən birinin yaratdığı və inkişaf etdirdiyi elmi məktəb olduğunu da vurğulayıb. Belə ki, alimin rəhbərlik etdiyi kafedrada elmi tədqiqat, klinik fəaliyyət və tədris vahid sistem şəklində inkişaf edib. Bu yanaşma gələcək pediatrların yalnız nəzəri bilik və praktik bacarıqlara yiyələnməsini deyil, həm də müstəqil klinik düşüncə tərzinin formalaşmasını, elmi sübutlara əsaslanan qərarlar qəbul etməsini və həkimlik peşəsinin mənəvi məsuliyyətini dərk etməsini təmin edib.

Rektor A.Namazovanın rəhbərliyi ilə 70-ə yaxın tibb elmləri doktoru və tibb üzrə fəlsəfə doktorunun hazırlanmasını, 400-dən artıq elmi əsərin, monoqrafiya və dərsliklərin işıq üzü görməsini onun çoxşaxəli fəaliyyətinin miqyasının göstəricisi kimi dəyərləndirib: "Akademik Adilə Namazovanın yaratdığı elmi mühit, formalaşdırdığı düşüncə tərzi və davamçılarının sonrakı fəaliyyətinin cəmiyyətə təsiri də həmin irsin ayrılmaz hissəsidir. Bu elmi məktəb Azərbaycan tibb təhsilinin və pediatriya elminin mühüm intellektual sərvətlərindən biridir".

Gəray Gəraybəyli çıxışının sonunda akademik Adilə Namazovanın həyat və fəaliyyətinin gələcək həkim və tədqiqatçılar üçün daim nümunə olacağına əminliyini bildirib.

Milli Məclisin deputatı Müşfiq Məmmədov isə üç komitə sədrinin təbriklərini və xoş arzularını tədbir iştirakçılarına çatdırıb. O, Adilə Namazovanın həyat və fəaliyyətinin insan əzminin, zəhmətkeşliyin və qarşıya qoyulan strateji məqsədə çatmaq iradəsinin parlaq nümunəsi olduğunu vurğulayıb. Deputat Ağdamın Seyidli kəndində dünyaya göz açan sadə bir kənd qızının öz əzmi, cəsarəti və çalışqanlığı sayəsində Azərbaycanın ən aparıcı elm xadimlərindən birinə çevrilməsinə diqqətəlayiq həyat nümunəsi kimi dəyərləndirib.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova da çıxışında akademik Adilə Namazovanın çoxillik elmi və həkimlik fəaliyyətinin respublikada pediatriya elminin formalaşmasında mühüm yer tutduğunu bildirib. İradə Hüseynova akademik Adilə Namazovanın şəxsiyyətində həkimlik, alimlik, müəllimlik və ictimai fəaliyyət kimi dörd mühüm keyfiyyətin birləşdiyini bildirib. Onun bütün bu sahələrdə yüksək bacarıq nümayiş etdirdiyini qeyd edərək, Adilə Namazovanın xüsusilə gənclər və gənc xanımlar üçün örnək olduğunu vurğulayıb.

Tədbirdə akademik Adilə Namazovanın yetirməsi, Azərbaycan Pediatrlar Assosiasiyasının sədri, Avrasiya Uşaq Həkimləri Federasiyasının vitse-prezidenti, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının dosenti, tibb üzrə fəlsəfə doktoru Təranə Tağı-zadə alimin elmi, pedaqoji və ictimai fəaliyyətinə həsr olunmuş təqdimatla çıxış edib.

Proqram çərçivəsində akademik Adilə Namazovanın həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Sonda akademik Adilə Namazovanın ailəsi adından bacısı Tamella Namazova çıxış edərək, Adilə xanımın əziz xatirəsinin yaşadılmasına göstərilən diqqətə, konfransın yüksək səviyyədə təşkilinə görə universitet rəhbərliyinə, təşkilatçılara və tədbir iştirakçılarına minnətdarlığını bildirib.

Dövlət qurumlarının, elmi müəssisələrin nümayəndələri, tanınmış alimlər, tibb ictimaiyyətinin təmsilçiləri və akademik Adilə Namazovanın yetirmələrinin iştirak etdiyi konfrans öz işini pediatriyanın aktual problemlərinə həsr olunmuş panel iclaslarla davam etdirib.

YENİ NƏŞRLƏR

Böyük Azərbaycan şairi Xaqani Şirvaniyə həsr olunmuş biblioqrafik göstərici

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası (MEK) tərəfindən görkəmli Azərbaycan şairi Əfzələddin Xaqani Şirvaninin anadan olmasının 900 illiyinə həsr edilmiş biblioqrafik göstərici nəşr olunub.



Vəsaitə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncamı, eləcə də AMEA Rəyasət Heyətinin müvafiq qərarı daxil edilib.

Biblioqrafik göstəricidə şairin həyatı, yaradıcılığı və ictimai fəaliyyətinin əsas tarixləri, əsərlərindən nümunələr, görkəmli şəxsiyyətlərin Xaqani Şirvani haqqında fikirləri, əsərlərinin əlyazma nüsxələri və çap nəşrləri, dövri mətbuatda, dərslik və məcmuələrdə dərc olunmuş əsərləri, eləcə də həyat və yaradıcılığına həsr edilmiş elmi-tədqiqat işləri və dissertasiyalar sistemli şəkildə öz əksini tapıb.

Kitabda vəsaitin elmi məsləhətçisi, AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin "Böyük Azərbaycan şairi Əfzələddin Xaqani" və filologiya üzrə fəlsəfə doktoru, dosent Elnarə Zeynalovanın "Xaqani Şirvani yaradıcılığının əsas xüsusiyyətləri" adlı məqalələri də yer alıb.

Vəsaitin elmi redaktoru MEK-in direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov, redaktoru Biblioqrafiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Aytən Əliyeva, tərtibçiləri isə Elmi biblioqrafiya sektorunun rəhbəri Nərgiz Novruzova və Hökümə Ələkbərovadır.

"Elm" nəşriyyatında çap olunan biblioqrafik göstərici filologiya sahəsində çalışan alim və mütəxəssislər, doktorantlar, ali məktəb tələbələri, o cümlədən geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Nəşrin elektron versiyası ilə MEK-in rəsmi saytının "Elektron kitabxana" bölməsində tanış olmaq mümkündür.

Görkəmli qazax yazıçısı Kemel Tokayev haqqında monoqrafiya

Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Türk Mədəniyyəti və İrsi Fondunun birgə layihəsi çərçivəsində görkəmli qazax yazıçısı, qazax detektiv ədəbiyyatının banisi Kemel Tokayevin (1923-1986) həyat və yaradıcılığına həsr olunmuş "Kemel Tokayev: Həyatı, mühiti və yaradıcılığı" adlı kollektiv monoqrafiya nəşr olunub.



Kitab Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində hazırlanıb.

Monoqrafiyanın layihə rəhbərləri AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli və Türk Mədəniyyəti və İrsi Fondunun rəhbəri Aktoti Raimkulova, elmi redaktorları professor Məmməd Əliyev və professor Nizami Məmmədov, məsul redaktoru filologiya elmləri doktoru Mehman Həsənli, məsul katibi isə filologiya üzrə fəlsəfə doktoru Seyidnisə Lətiflidir.

Kitabda Kemel Tokayevin həyat yolu, ictimai fəaliyyəti və yaradıcılığının əsas istiqamətləri geniş elmi-nəzəri kontekstdə araşdırılıb. Yazıçının detektiv ədəbiyyatın inkişafına verdiyi töhfələr, yaradıcılığının ideya-bədii xüsusiyyətləri, sənətkarlıq məziyyətləri və qazax ədəbiyyatındakı mövqeyi elmi təhlilə cəlb olunub.

Dörd fəsildən ibarət olan monoqrafiyanın birinci fəslində Kemel Tokayevin həyat yolu və sənət idealı, ikinci fəslində detektiv yaradıcılığının məzmunu, problematikası və bədii axtarışları, üçüncü fəslində yazıçının sənət dünyası, dördüncü fəslində isə onun irsinin Azərbaycan ədəbi-mədəni mühitində yeri və əhəmiyyəti araşdırılıb.

Nəşrdə yazıçının "Sirli iz", "Damğalı qızıl", "Gecə açılan atəş", "Xüsusi tapşırıq", "Sui-qəsd" və "Dağdan gələn səda" kimi əsərləri ayrıca tədqiq olunub. Bu əsərlərin mövzu və problematikası, ideya-bədii məzmunu, süjet-kompozisiya quruluşu, obrazlar sistemi və janr xüsusiyyətləri elmi baxımdan təhlil edilib. Araşdırmalarda yazıçının detektiv janrına gətirdiyi yeniliklərə, bədii üslubunun səciyyəvi cəhətlərinə, tarixi gerçəkliklə bədii təxəyyülün əlaqəsinə, müharibə və insan taleyi, milli xarakter və psixoloji məqamların təsvirinə xüsusi diqqət yetirilib.

Kollektiv monoqrafiya Kemel Tokayevin ədəbi irsinin sistemli şəkildə öyrənilməsi, qazax və Azərbaycan ədəbiyyatları arasında elmi-mədəni əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyətli nəşrdir. Kitab, eyni zamanda, türk xalqları ədəbiyyatının qarşılıqlı tədqiqi və tanıdılması istiqamətində mühüm elmi töhfə kimi dəyərləndirilə bilər.

Tədqiqatlarda süni intellektin tətbiqi üzrə təlim

AMEA Rəqəmsal Akademiya, Süni İntellekt və Elektron Xidmətlər şöbəsinin təşkilatçılığı, AMEA A.A.Bakıxanova adına Tarix və Etnologiya İnstitutunun Rəqəmsal tarix-etnologiya və süni intellekt şöbəsinin koordinatorluğu ilə "Tədqiqatlarda süni intellektin tətbiqi" təliminin beşinci modulu keçirilib.



Modul çərçivəsində AMEA Rəqəmsal Akademiya, Süni İntellekt və Elektron Xidmətlər şöbəsinin əməkdaşı Aygün Əliyeva humanitar elmlərdə akademik mətnin hazırlanması, süni intellektin redaktor kimi istifadəsi və historioqrafik icmalın beşkomponentli strukturu haqqında ətraflı təqdimatla çıxış edib.

Təlim zamanı Zotero, NotebookLM və Claude alətlərinin inteqrasiyası əsasında biblioqrafik mənbələrdən arqumentativ narrativin formalaşdırılmasına yönəlmiş 6 addımlı iş prosesi praktiki nümunələrlə nümayiş etdirilib.

Bununla yanaşı, süni intellekt detektorlarının iş prinsipləri, yanlışmüsbət nəticələrin (false positive) yaratdığı risklər və akademik dürüstlüyün qorunmasında metodoloji şəffaflığın əhəmiyyəti diqqətə çatdırılıb.

Təlim iştirakçıların suallarının cavablandırılması və real tədqiqat nümunələri ətrafında aparılan müzakirələrlə yekunlaşıb.

Əbdülvahab Yurdsevərin "Seçilmiş əsərləri"nin I cildi

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun təsis etdiyi "Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" seriyasının IX cildi - Əbdülvahab Yurdsevərin "Seçilmiş əsərləri" (I cild) "Max Ofset" nəşriyyatında çapdan çıxmışdır.



Bu kitab XX əsr Azərbaycan siyasi mühacirətinin ünlü simalarından olan Əbdülvahab Yurdsevərin yazılı irsindən seçmələrin toplu halında ilk elmi nəşridir.

İlk mənbələr əsasında tərtib edilmiş cilddə Ə.Yurdsevərin mühacirət dövrü çoxşaxəli ədəbi-elmi və publisistik fəaliyyətinin məhsulu olan məqalələr, xatirələr yer almışdır. Bu əsərlər Azərbaycan ədəbiyyatşünaslığının çeşidli problemlərinə, milli istiqlal mücadiləsinin tarixinə, Türk dünyasının görkəmli şəxsiyyətlərinin həyatına müəllifin orijinal baxışını əks etdirir.

Cildin tərtibçisi, ön söz və qeydlərin müəllifi filologiya elmləri doktoru Nikpur Cabbarlı, məsul redaktorları Aysel Əfəndiyeva və Hülya Cəbiyevadır.

Postmüharibə dövründə Azərbaycançılıq məfkurəsinin təkamülü və yeni hədəflər

Milli ideologiyalar dövlətin təhlükəsizlik çağırışları və geosiyasi hədəflərinə uyğun olaraq təkamül edən sistemlərdir. 1990-cı illərdə Ümummilli Lider Heydər Əliyev tərəfindən irəli sürülən klassik Azərbaycançılıq ideologiyası dövlətçiliyin qorunması, daxili xaosun qarşısının alınması və işğal faktı fonunda milli həmrəyliyə yönəlmiş müdafiə doktrinası idi. 2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror tədbirləri ilə ərazi bütövlüyü və suverenliyin tam təmin olunması bu 30 illik tarixi mərhələnin missiyasını yekunlaşdıraraq yeni mərhələyə yol açdı.

Ərazi bütövlüyünün və suverenliyin tam təminindən sonra keçirilən Yeni Azərbaycan Partiyasının VIII Qurultayı dövlətin yeni strateji eraya qədəm qoyduğunu rəsmən təsbit edən mühüm siyasi mərhələ oldu. Prezident İlham Əliyevin bu qurultaydakı konseptual çıxışı qalib dövlətin yeni ideoloji paradiqmasının - "Neoazərbaycançılıq" modelinin əsas sütunlarını müəyyənləşdirmək üçün əsas ideoloji-nəzəri baza oldu. Prezidentin bu çıxışındakı əsas siyasi və ideoloji mesajlar bunlardan ibarət idi:

· Zəfər fəlsəfəsi və yeni kimlik: 30 illik məğlubiyyət və itki travması aradan qaldırılmış, milli şüurun mərkəzinə qalibiyyət, ləyaqət və quruculuq narrativi yerləşdirilmişdir.

· İdeoloji təhlükəsizlik: Sərhədlərin fiziki mühafizəsi ilə yanaşı, artan xarici təzyiqlər və hibrid hücumlar fonunda informasiya-ideoloji məkanın qorunması milli suverenliyin təməl şərti elan edilmişdir.

· Geosiyasi subyektlik: Azərbaycan regionda kənar güclərin təsir obyekti olmaqdan çıxaraq öz gündəliyini diktə edən müstəqil orta güc mərkəzinə çevrilmişdir.

· Müdafiədən proaktivliyə keçid: Dövlətçilik xətti mövcud vəziyyəti sadəcə qorumaq deyil, milli maraqları hücumçu diplomatiya, güclü ordu və Türk inteqrasiyası ilə irəli aparmaq üzərində qurulmuşdur.

Beləliklə, YAP-ın VIII Qurultayında Prezident İlham Əliyevin çıxışı klassik Azərbaycançılığın müdafiə mərhələsini yekunlaşdıraraq qalib dövlətin proaktiv və strateji doktrinasının - Neoazərbaycançılığın siyasi-nəzəri bünövrəsini qoymuş oldu.

Tarixi təkamül zənciri, psixoloji qırılma xətləri və dəyişən geostrateji çağırışlar postmüharibə Azərbaycanının qarşısında dayanan ən mühüm nəzəri sualı aktuallaşdırır: "Neoazərbaycançılıq" nədir və o, klassik modelin sadəcə situativ davamıdır, yoxsa keyfiyyətcə yeni dövlətçilik paradiqmasıdır? Elmi-akademik təhlil göstərir ki, "Neoazərbaycançılıq" klassik azərbaycançılığın təməl sütunlarını - vətəndaş həmrəyliyini, multikultural birgəyaşayışı və dünyəvi dövlətçiliyi inkar etmir. Əksinə, o, bu dəyərlərin otuz illik tarixi mərhələdə daşıdığı müdafiə, xilas və sağqalma qatını geridə qoyaraq, onları qalib dövlət üçün hücumçu, proaktiv və inkişafyönümlü yeni məzmunla zənginləşdirir. Bu baxımdan, "Neoazərbaycançılıq" hazır və qapanmış bir ehkam deyil, dörd təməl konseptual sütun üzərində formalaşmaqda olan dinamik doktrinadır.

Bu doktrinanın birinci sütununu mütləq suverenlik və bərpa olunmuş mil-



li ləyaqət fəlsəfəsi təşkil edir. Klassik dövrdə suverenlik parçalanmış ərazi və dondurulmuş münaqişə təhlükəsi fonunda daimi risk altında olan kövrək dəyər idisə, yeni mərhələdə o, bütöv, bölünməz və güzəştsiz status kimi təsbit olunur. Xankəndidə, Şuşada və dövlət sərhədlərinin hər qarışında dalğalanan bayraq təkcə fiziki nəzarətin deyil, xalqın milli qürur və ləyaqətinin bərpasının rəmzidir. Yeni paradiqma vətəndaşdan özünümüdafiə və ya kompensasiya hissi deyil, beynəlxalq məkanda milli maraqları qətiyyətlə və bərabərhüquqlu əsaslarla irəli aparmağı şərtləndirən yüksək dövlətçilik məsuliyyəti tələb edir.

İkinci sütun xarici siyasətdə strateji muxtariyyət və regional "orta güc" statusudur. "Neoazərbaycançılıq" hər hansı bir qlobal güc mərkəzinin periferiyası olmağı qətiyyətlə rədd edir. Dövlət kənar təhlükəsizlik çətirlərindən asılılığı minimuma endirərək öz müdafiə sənayesinə və müasir ordusuna güvənir, regional məsələlərdə "regionun taleyini region dövlətləri həll etməlidir" prinsipini əsas götürür və Şərq-Qərb nəqliyyat-enerji qovşağı kimi qlobal logistikanın qaydalarını müəyyən edən subyektinə çevrilir.

Doktrinanın üçüncü sütunu daxili modernləşmə, texnoloji intibah və yeni inkişaf fəlsəfəsidir. Yeni ideologiya yalnız keçmiş zəfərin romantik təbliğatına sığına bilməz; onun yaşama qabiliyyəti cəmiyyətin sosial və intellektual inkişaf sürətindən birbaşa asılıdır. Məhz burada "Böyük Qayıdış" konsepsiyası ideoloji sınaq meydanına çevrilir. Qarabağ və Şərqi Zəngəzurun bərpası sırf fiziki inşaat prosesi deyil, ölkənin gələcək iqtisadi modelinin - "ağıllı şəhər", "yaşıl enerji zonası", rəqəmsallaşma və yüksək texnologiyalar ekosisteminin sınaq bazasıdır. Bu fəlsəfə bürokratik inersiyanı rədd edən, elmi innovasiyaya və insan kapitalına arxalanan yeni dövlət qulluğu və vətəndaş mədəniyyətini hədəfləyir.

Nəhayət, dördüncü sütun daxili vətəndaş birliyi ilə sivilizasiya kimliyinin vəhdətini təcəssüm etdirən sivilizasiya harmoniyasıdır. Ölkə daxilində polietnik və çoxkonfessiyalı balans tam qorunur; hər bir vətəndaş etnik mənsubiyyətindən asılı olmayaraq qalib Azərbaycanın bərabərhüquqlu qurucusu kimi çıxış edir. Eyni zamanda, dövlətin sivilizasiya kökləri birmənalı olaraq Türk dünyası ilə eyniləşdirilir, Şuşa Bəyannaməsi və Türk Dövlətləri Təşkilatına inteqrasiya milli təhlükəsizliyin xarici qalxanı və mənəvi bazası kimi qəbul edilir.

Bununla belə, "Neoazərbaycançılıq" modelinin şüar və ya müvəqqəti bəyannamələr səviyyəsində qalmaması, dayanıqlı dövlətçilik doktrinasına çevrilməsi üçün qarşıda hələ həllini gözləyən fundamental institusionallaşma tələbləri dayanır. İlk növbədə, təhsil və ictimai elmlər sistemi otuz illik məğlubiyyət və qurban terminologiyasından təmizlənməli, qələbə fəlsəfəsini tənqidi təfəkkürlə uzlaşdıran yeni elmi dərsliklər və tədris proqramları formalaşdırılmalıdır. İkincisi, qalib xalqın dövlətlə münasibətləri yüksək sosial ədalət, şəffaflıq və hüququn aliliyini tələb edir; idarəetmədə inersiya və inhisarçılıqla mübarizə aparılmadan ideoloji təhlükəsizliyi təmin etmək mümkün deyildir.

Bu kontekstdə ideoloji təhlükəsizliyin ən həssas və həlledici cəbhəsi məhz milli-mənəvi məkanın yad təsirlərdən mühafizəsidir. Xüsusilə regional güclərin dini amildən geosiyasi təzyiq və "yumşaq güc" aləti kimi istifadə etdiyi müasir şəraitdə, ölkənin xarici dini mərkəzlərdən asılılığını tam aradan qaldıran müstəqil və milli dövlət-din münasibətləri modeli formalaşdırılmalıdır. Bu model dini inancları yad siyasi gündəliklərdən, radikal təriqətçilikdən və xarici şəbəkələrin təsirindən qorumaqla yanaşı, Azərbaycanın tarixi dünyəvilik ənənələrinə, məzhəblərarası tarixi tolerantlığına və milli mədəni kodlarına söykənən yerli kadr bazasının yetişdirilməsini təmin etməlidir. Müstəqil milli dini model olmadan nə cəmiyyətin ideoloji immunitetini kənar təxribatlardan qorumaq, nə də qalib dövlətin suveren ideoloji arxitekturasını tamamlamaq mümkündür.

Postmüharibə dövründə Azərbaycan öz mədəni-mənəvi hüdudlarını ardıcıl şəkildə genişləndirərək dünya azərbaycanlılarının yeganə suveren dövləti missiyasını tam miqyası ilə üzərinə götürür. Respublikamız təkcə öz sərhədləri daxilində deyil, qlobal miqyasda soydaşlarımızın hüquq və mənafelərinin təminatçısı rolunda çıxış edir, onlarda sarsılmaz azərbaycançılıq məfkurəsini möhkəmləndirir. Bu baxımdan, dünyanın müxtəlif ölkələrində yaşayan, fərqli siyasi vətəndaşlıq kimliyinə malik olan, lakin özünü etnik, tarixi və mənəvi cəhətdən azərbaycanlı sayan on milyonlarla soydaşımızı ortaq milli platformada birləşdirmək üçün məhz belə bir vahid ideoloji çətirə həyati ehtiyac duyulur.

Təsadüfi deyil ki, sözügedən qlobal həmrəylik doktrinasının ən möhkəm, sarsılmaz fəlsəfi bünövrəsini minillik dövlətçilik ənənəsinin fasiləsizliyini təmin edən dərin milli tarix şüuru təşkil edir. "Neoazərbaycançılıq" konsepsiyasında milli tarix yaddaşı yalnız 1918-ci il Cümhuriyyəti və ya 1991-ci il müstəqilliyi ilə məhdudlaşan dar xronologiyanı aşaraq, Azərbaycanın böyük imperiya dövlətçiliyi təcrübəsini özünün ayrılmaz ontoloji zəmini elan edir. Bu kontekstdə dövlətçilik irsinin ən parlaq tarixi zirvəsi olan Səfəvilər dövləti və Qızılbaşlıq məfkurəsi yeni ideologiyanın təməl tarixi istinadgahına çevrilir. Məhz Səfəvi imperiyası mərhələsində Azərbaycanın etnik coğrafiyası ilə siyasi-inzibati coğrafiyası üst-üstə düşmüş, dövlətin ordu, idarəetmə və saray elitasını birbaşa Azərbaycan-türk qızılbaş kəsimi formalaşdırmış, Azərbaycan dili ilk dəfə rəsmi dövlət, ordu və diplomatiya dili statusuna yüksəlmişdir.

Siyasi baxımdan burada qüsursuz və ardıcıl bir tarixi-hüquqi zəncir mövcuddur: 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk dünyəvi respublika olmaqla yanaşı, Səfəvilər, Əfşarlar və Qacarlardan sonra yaranmış müstəqil Azərbaycan xanlıqlarının siyasi irsini, habelə tarixi dövlətçilik ənənəmizi müasir beynəlxalq hüquq müstəvisində birləşdirən birbaşa siyasi varisdir. 1991-ci ildə bərpa edilən və bu gün tam suverenliyinə qovuşan Müstəqil Azərbaycan Respublikası isə Konstitusiya Aktı ilə təsbit olunduğu kimi, Cümhuriyyətin rəsmi varisidir. Beləliklə, tarixi və hüquqi ardıcıllıq birmənalıdır: Müstəqil Azərbaycan Cümhuriyyətin varisi, Cümhuriyyət isə Səfəvilərdən xanlıqlara qədər uzanan bütöv dövlətçilik irsinin varisidir.

Məhz Azərbaycan Respublikasının Səfəvi dövlətçiliyinin tarixi və siyasi varisi olması faktı, dünya azərbaycanlılarının milli təşkilatlanmasında yeni və strateji bir ideoloji məsuliyyət doğurur. Bu gün fərqli dövlətlərin sərhədləri daxilində yaşayan - İranda, İraqda, Suriyada, Əfqanıstanda, Türkiyədə və digər coğrafiyalarda məskunlaşan, özünü azəri hesab edən bütün Qızılbaş, Türkman, Əfşar, Qacar, Bayat, Şahsevən və digər Azərbaycan kökənli soydaşlarımızın yeganə milli dövləti məhz müstəqil Azərbaycan Respublikasıdır. Zamanın geosiyasi tələtümləri nəticəsində parçalanmış və fərqli coğrafiyalara səpələnmiş bu nəhəng kütlənin tarixi mənsubiyyət kodu Səfəvilərin qurduğu Qızılbaş dövlətçiliyinə, bugünkü ünvanı isə Müstəqil Azərbaycan Respublikasına bağlıdır.

"Neoazərbaycançılıq" bu tarixi həqiqəti şüurlara aşılayaraq bütün Azərbaycan kökənli insanlara birmənalı bir ideoloji mesaj verir: Müstəqil Azərbaycan Dövləti hər bir soydaşımızın sivilizasiya dayağı, milli qürur qalası və yeganə dövlətçilik ocağıdır; buna görə də dünyanın harasında yaşamasından asılı olmayaraq, hər bir Azərbaycan kökənli fərd bu dövləti göz bəbəyi kimi qorumağı, onun beynəlxalq nüfuzunu müdafiə etməyi, onun təhlükəsizliyinə xidmət etməyi özünün ən müqəddəs tarixi və milli borcu bilməlidir. Bu yanaşma pərakəndə soydaş qruplarını passiv seyrçilikdən çıxarır, onları vahid dövlətçilik ideyası ətrafında səfərbər edir və Azərbaycan Respublikasını bütün qlobal soydaşlarımız üçün toxunulmaz, qorunması vacib olan ali milli dəyərə çevirir.

Beləliklə, "Neoazərbaycançılıq" sadəcə regional hüdudlarla çərçivələnmiş lokal ideologiya deyil; o, minillik dövlətçilik təcrübəsini, siyasi varisliyini özündə ehtiva edən, müasir dövrün çağırışlarına cavab verən universal milli doktrinadır. Bu təlim bir tərəfdən tam suverenliyinə qovuşmuş güclü Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində müstəqil iradəsini və hüquqi ardıcıllığını təsbit edir, digər tərəfdən isə sərhədləri aşaraq dünya azərbaycanlılarını vahid mənəvi, tarixi və strateji çətir altında birləşdirir. Nəticə etibarilə, müasir Azərbaycan öz şanlı keçmişinə söykənərək gələcəyini quran, qlobal miqyasda milli kimliyinə sahib çıxan və böyük dövlətçilik ənənəsini yeni zirvələrə daşıyan qüdrətli bir güc mərkəzidir.

Mübariz AĞALARLI
AMEA-nın Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent

Türkiyədə keçirilən ANKOSLink2026 Beynəlxalq Konfransında

AMEA-nın Mərkəzi Elmi Kitabxanasının (MEK) direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov noyabrın 16-19-da Türkiyənin Antalya şəhərində keçirilən ANKOSLink2026 Beynəlxalq Konfransında iştirak edib.



Antalya Bilim Universitetinin ev sahibliyi və təşkilati dəstəyi ilə keçirilən konfransın builki mövzusu "Konsorsiumların yenidən müəyyənləşdirilməsi və yeni informasiya ekosistemi"dir.

30-dan artıq ölkədən 500-dən çox iştirakçının qatıldığı beynəlxalq konfransın açılışında Türkiyə Elmlər Akademiyasının (TÜBA) prezidenti professor Müzəffər Şəkər, Antalya Bilim Universitetinin prorektoru professor Hülya Şimga, ANKOS-un rəhbəri İsmail Çetinkaya və digər qonaqların konsorsiumların gələcəyi, yeni əməkdaşlıq və dayanıqlı maliyyələşdirmə modelləri, rəqəmsal informasiya ekosisteminin inkişafı, süni intellektin tətbiqi kimi aktual məsələlər ətrafında çıxışları dinlənilib.

Konfransın gündəliyində süni intellektin kitabxanalara təsiri, süni intellekt dəstəkli kitabxanaların formalaşdırılması, informasiya resurslarına bərabər çıxış imkanları, innovativ informasiya xidmətləri, rəqəmsal transformasiya, kitabxana xidmətlərinin müasir tələblərə uyğun yenidən qurulması, istifadəçi yönümlü xidmətlərin təşkili və kitabxanaçıların peşəkar səriştələrinin inkişafı kimi mövzular da yer alır.

Tədbir çərçivəsində kitabxana-informasiya sahəsində uğurlu təcrübələrin, praktiki araşdırmaların və innovativ layihələrin təqdim edilməsi, eləcə də sahənin aktual peşəkar problemlərinin müzakirəsi nəzərdə tutulur.

Tədbirin sponsorları sırasında "Step Kitap", "Clarivate", "Elsevier", "Springer Nature", "Ankaref İnovasyon ve Teknoloji A.Ş.", "CAS (American Chemical Society)", "Hiperlink" kimi texnologiya nəhəngləri yer alıb.

Onu da qeyd edək ki, akademik panellərlə yanaşı, texnologiya şirkətləri öz yeni elektron həllərini, kəşf alətlərini və süni intellekt platformalarını stendlərdə nümayiş etdirirlər.

Konfrans müddətində Mərkəzi Elmi Kitabxana tərəfindən ANKOS-un rəhbərinə hədiyyə də təqdim olunub.

Qarabağ və Qərbi Azərbaycan əlyazmalarının vahid elmi kataloqu hazırlanır

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda Qarabağ və Qərbi Azərbaycanın tarixi irsi sistemli şəkildə araşdırılır və beynəlxalq miqyasda təbliğ olunur.



İnstitutda Qarabağ və Qərbi Azərbaycanın tarixinə, həmçinin zəngin ədəbi-mədəni irsinə dair yazılı mənbələrin tədqiqi, mühafizəsi və elmi ictimaiyyətə təqdim olunması istiqamətində mühüm işlər həyata keçirilir. AMEA Rəyasət Heyətinin 11 iyun 2024-cü il tarixli qərarı ilə institutun strukturunda yaradılmış Qərbi Azərbaycan və Qarabağ əlyazmalarının tədqiqi şöbəsi bu sahədə sistemli elmi araşdırmalara start verib. Şöbədə Qərbi Azərbaycan və Qarabağ əlyazmalarının vahid elmi kataloqunun tərtibinə başlanılıb. Eyni zamanda, dövri mətbuatda Qərbi Azərbaycan mövzusunda dərc edilmiş məqalələr toplanılaraq sistemləşdirilir.

Şöbə müdiri filologiya elmləri doktoru Raqub Kərimov tərəfindən Qərbi Azərbaycanın görkəmli şairləri - Məşhədi İsmayıl Hacı Kazımzadə Bəzmi, Mirzə Kazım Qazı Əsgərzadə, "Müttəli" təxəllüslü Axund Əhmədov və "Sabir" təxəllüslü Hacı Seyid Rza Əmirzadənin həyat və yaradıcılığı dərindən araşdırılıb. Şöbə əməkdaşları institutun fondlarında qorunan Qarabağ və Qərbi Azərbaycan mütəfəkkirlərinə məxsus əlyazma nüsxələrinin transfoneliterasiyasını davam etdirirlər. Qərbi Azərbaycanın tarixi yaddaşının qorunması və tarixi həqiqətlərin dünya elmi ictimaiyyətinə çatdırılması məqsədilə şöbə əməkdaşlarının nəşr və təqdimat fəaliyyəti genişləndirilir. Bundan əlavə, Əlyazmalar İnstitutu milli yazılı irsimizin beynəlxalq miqyasda tanıdılması və qabaqcıl xarici təcrübənin (birgə kataloqların hazırlanması, elmi şəbəkələşmə, qarşılıqlı sərgi mübadiləsi) öyrənilməsi istiqamətində addımlar atır. Bu çərçivədə görkəmli Azərbaycan maarifçisi İsmayıl bəy Qutqaşınlının fransız dilində qələmə aldığı, yeganə qədim çap nüsxəsi institutda qorunan və Nigar Babaxanova tərəfindən Azərbaycan dilinə tərcümə edilən "Rəşid bəy və Səadət xanım" əsərinin yeni nəşri hazırlanıb. Bu nəşr milli-mədəni dəyərlərimizin qlobal təbliğinə, eləcə də Azərbaycan-Fransa elmi və mədəni əlaqələrinin genişləndirilməsinə mühüm töhfə verir.

AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanası zəngin elm və bilik xəzinəsidir



Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Elmi Kitabxanası uzun illərdir ki, xalqımızın zəngin elmi və mənəvi irsini qoruyan mühüm intellektual mərkəz olaraq fəaliyyət göstərir. Azərbaycanın, eləcə də onun ayrılmaz parçası olan muxtar respublikanın qədim tarixini, ədəbiyyatını, mədəniyyətini yaşadan bu bilik xəzinəsi naxçıvanlı tədqiqatçıların əsərləri, qədim əlyazmalar və dövri mətbuat nümunələri ilə elmi irsə mühüm töhfələr verir.

Zəngin kitab fondu ilə nəhəng bir elmi arxiv funksiyasını yerinə yetirən müəsssisənin fəaliyyəti ilə bağlı ətraflı məlumatı kitabxanın müdiri Samirə Salahovadan aldıq.

- Samirə xanım, əvvəlcə kitabxananın yaranma tarixi, keçdiyi inkişaf yolu və əsas missiyası haqqında məlumat verərdiniz?

- AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanası zəngin tarixi inkişaf yolu keçmiş, yarandığı gündən etibarən bölgədə elmin, təhsilin və maarifçiliyin inkişafına xidmət etmiş mühüm elmi-mədəni müəssisələrdən biridir. Kitabxananın əsası 1972-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının filialı kimi Naxçıvan Regional Elmi Mərkəzinin nəzdində qoyulub. Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamı ilə AMEA Naxçıvan Bölməsi yaradıldıqdan sonra kitabxana da yeni inkişaf mərhələsi keçərək müstəqil elmi kitabxana kimi fəaliyyətini davam etdirib. 2013-cü il sentyabrın 4-də elektron kitabxana statusunu alması isə onun fəaliyyətində yeni texnoloji mərhələnin başlanğıcı sayılır. Elektron oxu zalının yaradılması, server sisteminin qurulması, lokal şəbəkənin və internet resurslarının istifadəyə verilməsi kitabxana xidmətlərinin əlçatanlığının təmin edilməsinə mühüm imkanlar yaradıb.

Bu gün kitabxananın əsas məqsədi ənənəvi kitabxana dəyərlərini müasir texnologiyalarla birləşdirərək elmi informasiya xidmətini inkişaf etdirmək, tədqiqatçılar üçün etibarlı informasiya məkanı formalaşdırmaq və Naxçıvanın elmi-mədəni irsinin yaşadılmasına töhfə verməkdir.

- Kitabxananız son dövrlərdə hansı yeni nəşrlərlə zənginləşdirilib?

- Ötən dövr ərzində kitabxana fondu müxtəlif elm sahələrini əhatə edən yeni elmi nəşrlər, monoqrafiyalar, ensiklopediyalar, biblioqrafik göstəricilər və digər qiymətli ədəbiyyat nümunələri hesabına zənginləşdirilib. Bunların içərisində "Molla Nəsrəddin" jurnalının latın qrafikası ilə çap olunan 10 cildlik toplunu xüsusilə vurğulamalıyam. Həmçinin Fondda xüsusilə, Naxçıvanın qədim tarixi, arxeologiyası, etnoqrafiyası, epiqrafik abidələri, folkloru, ədəbiyyatı və təbii sərvətləri ilə bağlı elmi nəşrlər üstünlük təşkil edir.

Fondumuzun əhəmiyyətli hissəsi AMEA Naxçıvan Bölməsinin elmi-tədqiqat institutlarında çalışan alimlərin əsərlərindən ibarətdir. Bu nəşrlər sırasında Naxçıvanın tarixinə və mədəni irsinə dair fundamental tədqiqatlar, elmi monoqrafiyalar, ensiklopedik nəşrlər və müxtəlif sahələr üzrə araşdırmalar xüsusi yer tutur. Məsələn, "Naxçıvan Ensiklopediyası", "Naxçıvan abidələri ensiklopediyası", "Dədə Qorqud yurdu-Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlası, "Naxçıvan tarixi", "Naxçıvan tarixi atlası", "Naxçıvanın folkloru antologiyası" kimi nəşrlər bölgənin elmi və mədəni irsinin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Son illərdə Naxçıvanın tarixi, mədəniyyəti və müxtəlif inkişaf sahələrinə həsr olunmuş yeni tədqiqat əsərləri də elmi informasiya mühitinin zənginləşməsinə töhfə verir. Bu əsərlər yalnız elmi mənbə deyil, həm də xalqımızın tarixi yaddaşını və mədəni irsini özündə yaşadan qiymətli xəzinədir.

- Samirə xanım, bu gün oxucu auditoriyasını formalaşdırmaq kitabxanaların qarşısında duran əsas vəzifələrdən biridir. Bu mənada, Elmi Kitabxananın əsas oxucusu kimlərdir?

- AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanasının əsas oxucu auditoriyasını, ilk növbədə, bölmənin elmi-tədqiqat müəssisələrində çalışan alimlər, elmi işçilər, doktorantlar, dissertantlar təşkil edir. Bununla yanaşı, ali təhsil müəssisələrinin müəllim və tələbələri, magistrantlar, eləcə də elmi araşdırmalar aparan ziyalılar kitabxanamızın fəal oxucuları sırasındadır. Oxucularımızın müraciətləri əsasən elmi tədqiqatların aparılması, dissertasiya və monoqrafiyaların hazırlanması, elmi məqalələrin yazılması, müxtəlif mövzular üzrə məlumatların toplanması və araşdırılması ilə bağlıdır. Xüsusilə Naxçıvanın qədim tarixi, arxeoloji abidələri, milli-mədəni irsi, görkəmli şəxsiyyətləri və elmi-ədəbi mühiti ilə bağlı kitablar tədqiqatçılarımızın maraq dairəsində mühüm yer tutur. Eyni zamanda, kitabxanamızın qapıları elmi biliklərə, mütaliəyə və informasiya əldə etməyə maraq göstərən bütün oxucular üçün açıqdır. Bizim üçün hər bir oxucunun informasiya tələbatının ödənilməsi, ona düzgün istiqamət verilməsi və mütaliə mədəniyyətinin inkişafına töhfə verilməsi vacibdir.

Son illərdə elektron informasiya resurslarına marağın artması nəticəsində oxucular artıq yalnız ənənəvi çap nəşrləri ilə kifayətlənmir, elektron kataloqlardan, rəqəmsal nəşrlərdən və elmi məlumat bazalarından da istifadə etməyə üstünlük verirlər. Bu isə kitabxanaların xidmət istiqamətlərinin müasir tələblərə uyğunlaşdırılmasını zəruri edir. Bununla belə, hesab edirik ki, elektron resursların genişlənməsi ənənəvi kitabın əhəmiyyətini azaltmır, əksinə öz elmi, mənəvi və mədəni dəyərini qoruyub saxlayır. Əsas məsələ hər ikisinin imkanlarından səmərəli istifadə etməkdir.

- Gələcəkdə kitabxananın qarşısında duran əsas hədəflər və inkişaf planları nədən ibarətdir?

- AMEA Naxçıvan Bölməsi Elmi Kitabxanasının qarşısında duran əsas hədəflərdən biri müasir dövrün tələblərinə uyğun olaraq kitabxana-informasiya xidmətinin daha da təkmilləşdirilməsi, elmi informasiya resurslarının zənginləşdirilməsi və oxucular üçün əlçatanlığın artırılmasıdır. Bu istiqamətdə kitabxana fondunun mütəmadi olaraq yeni elmi nəşrlər, monoqrafiyalar, ensiklopediyalar, dövri mətbuat materialları və digər zəruri informasiya mənbələri hesabına zənginləşdirilməsi nəzərdə tutulur. Elmi kitabxananın yerli və beynəlxalq elmi kitabxanalarla əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, təcrübə mübadiləsinin aparılması da bu sahədə mühüm əhəmiyyət daşıyır. Ümid edirik ki, həyata keçiriləcək tədbirlər kitabxananın elmi potensialının və ictimai əhəmiyyətinin daha da artmasına töhfə verəcək, AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanası bundan sonra da elmin inkişafına, elmi biliklərin geniş yayılmasına xidmət edən mühüm mərkəzlərdən biri olacaqdır.

- Müsahibə üçün sağ olun!

Güntac ŞAHMƏMMƏDLİ
AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti üzrə mütəxəssisi

Kəlbəcərin qayaüstü təsvirləri qədim insanların həyatı haqqında mühüm məlumatlar verir

Azərbaycan da zəngin petroqlif irsinə malik ölkələrdən biridir. Qayaüstü təsvirlər tarixin maddi mədəniyyət nümunələri əsasında öyrənilməsi baxımından mühüm mənbə hesab olunur. Bu təsvirlərdə qədim insanların təsərrüfat həyatı, ovçuluq və məişəti, dini dünyagörüşü, təbiətə münasibəti, eləcə də yaşadıqları ərazinin landşaftı və coğrafi xüsusiyyətləri əksini tapıb.



Azərbaycanda qayaüstü təsvirlərin aşkar edilməsi və tədqiqi baxımından XX əsrin 60-70-ci illəri xüsusilə əlamətdar olub. Bu dövrdə Abşeronda, Gəmiqayada və Kəlbəcər yaylaqlarında çoxsaylı petroqliflər qeydə alınıb.

Kəlbəcər ərazisi qədim insan məskənlərindən biri kimi zəngin arxeoloji irsə malikdir. Rayonun əlverişli təbii-coğrafi şəraiti, geniş otlaqları, bulaqları və yüksək dağlıq yaylaqları qədim dövrlərdən insanların məskunlaşması və təsərrüfat fəaliyyəti üçün əlverişli olub.

Ötən əsrin 60-70-ci illərində arxeoloq-alim Q.S. İsmayılzadə Tərtər çayının yuxarı axarını və Kəlbəcər yaylaqlarını tədqiq edib. Alagöl, Zalxagöl və Qaragöl sahillərində, həmçinin Pəriçınqılı, Ayıçınqılı, Lülpər, Gəlinqaya, Yazyurdu, Taxta və Sarımsaqdağ ərazilərində qayaüstü təsvirlər aşkar edib. Sonrakı dövrdə məlum hadisələr bu abidələrin sistemli şəkildə tədqiqini çətinləşdirib.

Kəlbəcər petroqlifləri Tunc dövrü tarixinin öyrənilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Qayaüstü təsvirlər arasında qədim nəqliyyat vasitələrini göstərən iki və dörd təkərli arabaların, öküzlərin nəqliyyatda və əkinçilikdə qoşqu vasitəsi kimi istifadəsinin təsvirləri xüsusi maraq doğurur.

Petroqliflərin mühüm hissəsini ovçuluq səhnələri təşkil edir. Qayaüstü rəsmlərdə ox-kaman və kəməndlə dağ keçilərinin, maralların ovlanması, eləcə də vəhşi və yırtıcı heyvanların təsvirləri geniş yayılıb. Maral, dağ keçisi, canavar və bəbir təsvirləri daha çox rast gəlinən nümunələrdəndir. Xüsusilə bəbir təsvirləri diqqəti cəlb edir. Onların yığcam, lakin canlı təsviri qədim insanların ətraf mühitə və heyvanların davranış xüsusiyyətlərinə yaxşı bələd olduğunu göstərir.

Qayaüstü təsvirlərdə dini təsəvvürlərə, mərasim və etiqadlara aid səhnələr də əksini tapıb. Rəqs səhnələri, zoomorf təsvirlər, mücərrəd işarələr və damğalar buna nümunədir.

İlk tədqiqatların nəticələrinə görə, Kəlbəcər petroqliflərinin böyük hissəsi Tunc dövrünün başlanğıcına - e.ə. III minilliyə aiddir. Qayaüstü təsvirlərin yaxınlığında aşkar edilmiş həmin dövrə aid açıq yaşayış məskəni və dairəvi tikili qalıqları da abidələrin tarixinin müəyyənləşdirilməsinə imkan verib.

